*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 oktyabr 2024-cü il №39 (9097) www.muallim.edu.az muallim@media.edu.az

Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının final mərhələsinə ümumilikdə 244 komanda üzrə 900-dən çox iştirakçı qoşulub

# BİZ ARTIQ QLOBAL CƏNUB VƏ QLOBAL ŞİMAL ARASINDA İQLİM ÜZRƏ ƏMƏKDAŞLIĞA TÖHFƏ VERİRİK




## Prezident İlham Əliyev Kazanda keçirilən XVI BRICS Sammitinin "Outreach"/"BRICS+" formatının ilk plenar iclasında çıxış edib

"Növbəti ayda Bakı ən böyük beynəlxalq iqlim konfransının — COP29-un keçirilməsi məkanı olacaq. Təqribən 200 ölkənin COP29-un Azərbaycanda keçirilməsinə dair yekdil qərarı bizim siyasətimizə hörmətin və dəstəyin parlaq sübutudur. Biz artıq Qlobal Cənub və Qlobal Şimal arasında iqlim üzrə əməkdaşlığa töhfə veririk və istər iqlim dəyişikliyi ilə bağlı məsələlərdə, istərsə də qlobal təhlükəsizlik, beynəlxalq hüququn aliliyi, bir-birinin işlərinə qarışmamaq, qarşılıqlı hörmət məsələlərində qarşılıqlı anlaşmaya nail olunmasına səy göstərəcəyik".

# "Yaşıl SAF COP29 çərçivəsində keçirdiyimiz ilk böyük tədbirdir"

SAF24 YAŞIL STEAM FESTİVALI AZƏRBAYCAN





## Emin Əmrullayev:

"SAF təkcə ölkə miqyasında deyil, həm də region üzrə illik hesabat tədbiridir. Bu, ən çox ölkəni əhatə edən və ən çox şagirdi cəlb edən bir tədbirdir. Yaşıl SAF COP29 çərçivəsində keçirdiyimiz ilk böyük tədbirdir. Bu tədbir şagirdlərdə ətraf mühitin sağlamlaşdırılması barədə fikirlərin formalaşmasına kömək edəcək".

## Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib

Elm və Təhsil Nazirliyi və COP29 Sədrliyinin dəstəyi, "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə oktyabrın 24-də Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib.

Bakı Ekspo Mərkəzində keçirilən tədbirdə dövlət rəsmiləri, millət vəkilləri, COP29 Azərbaycan Əməliyyat Şirkətinin nümayəndələri, ali təhsil və elmi müəssisələrin rəhbərləri, tanınmış ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər. Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimdə əvvəlcə festivala dair videoçarx nümayiş etdirilib.

Ardı səh. 2



# İqlim dəyişikliyi üçün təhsil və onun təsirləri

## Dünya Bankının hesabatı nələri vəd edir?

Bax səh. 10

# "Yaşıl SAF COP29 çərçivəsində keçirdiyimiz ilk böyük tədbirdir"

Əvvəli səh. 1

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev festivalın təhsil sahəsində nüfuzlu və əhəmiyyətli bir tədbir olduğunu diqqətə çatdırıb. Nazir STEAM-ın tədrisində əsas məqsədin gələcək nəsli yeni çağırışlara hazırlamaq olduğunu vurğulayıb və bildirib ki, builki festival şagirdlərdə ətraf mühitin sağlamlaşdırılması barədə fikirlərin formalaşmasına kömək edəcək.

Nazir çıxışının sonunda iştirakçılara uğurlar arzulayıb.

Tədbirdə iştirak edən BMT-nin iqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai öz növbəsində bildirib ki, COP29 ərəfəsində keçirilən builki festivalda əsas diqqətin yaşıl texnologiyalara yönəldilməsi mühüm əhəmiyyətə malikdir. Nigar Arpadarai STEAM təhsil metodunun sinergetik potensialı sayəsində iqlim dəyişmələrinin təsirlərini yumşaltmağın mümkünlüyünə də toxunub.

Daha sonra çıxış edən "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov bildirib ki, festivalın final mərhələsinə ümumilikdə 244 komanda üzrə 900-dən çox iştirakçı qoşulub və onlardan 146-sı Böyük Britaniya, Türkiyə, Pakistan, Türkmənistan, Qazaxıstan, Çexiya, Slovakiya və ABŞ daxil olmaqla 15 ölkəni təmsil edir. Layihə rəhbəri məzmunun hazırlanması və iştirakçıların qiymətləndirilməsi prosesində 10 ölkədən 17 münsifin iştirak etdiyini bildirib. İqrar Nəzərovun sözlərinə görə, festival çərçivəsində "Yaşıl təşəbbüslər", "Yaşıl kodlaşdırma", "Dron texnologiyaları", "Bizim peykimiz", "Robotların mübarizəsi", "Gələcəyin mühəndisləri" və s. kimi mövzularda 9 kateqoriya üzrə yarış və sərgi-yarışlar təşkil olunacaq.

İqrar Nəzərov STEAM layihəsinin hazırda ölkə üzrə 398 məktəb və 252 711 şagirdi əhatə etdiyini, 20-dən çox STEAM mərkəzinin fəaliyyət göstərdiyini vurğulayıb. İqrar Nəzərov həmçinin qeyd edib ki, layihə üzrə şagird sayının 2026-cı ilə kimi 300 minə çatdırılması nəzərdə tutulur.

Çıxışlardan sonra iştirakçıların festivala hazırlıq mərhələsini əks etdirən videoçarx təqdim olunub.

Daha sonra festivalda iştirak edən yerli və xarici komandaların təqdimatı keçirilib.

Açılış mərasimi bədii hissə ilə yekunlaşdırılıb.

İki gün davam edən festivalda iştirakçılar COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri tərəfindən keçirilən iqlim dəyişmələri və dayanıqlılıq mövzularında təlimlərə də cəlb olunublar.

Builki festivalın məqsədi ənənəvi olaraq STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı təhsilalanların aşkara çıxarılması ilə yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi və 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar STEAM əsaslı yanaşmanın tətbiqi vasitəsilə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatları və alternativ enerji mənbələrindən səmərəli istifadəyə dair innovativ həll yollarının, eləcə də layihələrin hazırlanmasını təşviq etməkdir.

## Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının açılış mərasimi keçirilib







### Emin Əmrullayev:

**"Azərbaycan PISA tədqiqatlarına ətraf mühit savadlılığının ölçülməsini təklif edib. Noyabrda COP29 çərçivəsində Azərbaycanda keçiriləcək elm və təhsil nazirlərinin görüşündə də bu məsələ müzakirə ediləcək**

**PISA-da oxu, riyaziyyat və təbiət elmləri ilə yanaşı ətraf mühit savadlılığının da ölçülməsi bəşəriyyət üçün əlavə dəyər yaradan bir təşəbbüs olacaq. Belə bir təşəbbüsdə iştirak etməkdən məmnunuq**

**Ölkəmizdə QS Beynəlxalq Reytinq şirkəti ilə böyük bir görüşün keçirilməsi də nəzərdə tutulur. Bu görüşün də ətraf mühitlə bağlı problemlərin həllinə öz töhfəsini verəcəyinə inanırıq**

**Son illər ərzində Azərbaycan STEAM təhsili addım-addım və mərhələli şəkildə həm ümumtəhsil, həm də ali təhsilin bir hissəsinə çevrilməkdədir. 250 min şagird müxtəlif səviyyələrdə STEAM siniflərinə cəlb olunub**

**İlk dəfə bu festivalda ənənəvi kateqoriyalarla yanaşı şagirdlərin iqlim dəyişikliyi ilə bağlı dayanıqlı həll yollarının tapılması, planetimizin qorunması kimi mövzularda bilik və bacarıqlarını və konkret layihələrinin nümayişini görəcəksiniz"**

## Qaliblər mükafatlandırılıb









Oktyabrın 25-də Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının bağlanış mərasimi keçirilib. Bağlanış mərasimində elm və təhsil nazirinin müavini Firudin Qurbanov, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə "STEAM Azərbaycan" layihəsinin rəhbəri İqrar Nəzərov çıxış edərək yarışların nəticələrinə dair hesabatı diqqətə çatdırıb. O qeyd edib ki, 4 ildir keçirilən STEAM Festivalı artıq üçüncü ildir ki, beynəlxalq formatda təşkil olunur.

"Festivalın qaydalarına əsasən, iştirakçıların 60%-i mükafatlandırılır ki, bu da onların səylərini dəyərləndirən əhəmiyyətli bir stimuldur. Fərqli yaş kateqoriyaları üzrə müxtəlif nominasiyalar mövcuddur. Aşağı yaş qruplarına daxil olan ibtidai sinif şagirdlərinin hər biri mükafatlandırılıb. Xüsusilə "Gələcəyin mühəndisləri" kateqoriyasında yarışan 33 komandanın hər bir üzvü təltif edilib".

Daha sonra qalib komandalara mükafatlar təqdim olunub.

**Yetər KƏRİMLİ**
**Foto: Kənan QAFAROV**

## Beynəlxalq Yaşıl SAF 2024 iştirakçıları iqlim dəyişmələri ilə bağlı maarifləndiriliblər

**Oktyabrın 25-də Beynəlxalq Yaşıl STEAM Azərbaycan Festivalının ikinci günündə iştirakçılar iqlim dəyişmələri və dayanıqlılıq mövzularında təlimlərə cəlb olunublar.**

Təlimlər COP29 Azərbaycan Əməliyyat Şirkətinin mütəxəssisləri tərəfindən keçirilib.

Təlimçilər Bakı Dövlət Universitetinin dosenti Lalə Bayramova, Xəzər Universitetinin dosenti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın üzvü Rövşən Abbasov və İqlim Dəyişmələri Mərkəzinin direktor müavini Aygün Nərimanova olub.

Təlimlərdə iqlim dəyişikliyi, qlobal istiləşmə, iqlim dəyişikliklərinin insan həyatına zərərləri, səth sularının idarəolunması, su ehtiyatlarının ərzaq istehsalı ilə bağlılığı və digər mövzular barədə danışılıb, həmçinin iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# STEAM təhsil metodu:

# TƏHSİLDƏ innovasiyanın zərurəti və beynəlxalq təcrübələr






**Dünyada qlobal dəyişikliklər və texnologiyaların inkişafı XXI əsr mütəxəssislərinin yeni bacarıqlara malik olmasını tələb edir. Bu prosesdə ən önəmli innovativ yanaşmalardan biri də STEAM tədris metodudur. STEAM (Science, Technology, Engineering, Arts, Mathematics) yalnız tədris proqramının tərkib hissəsi deyil, həm də şagirdlərin analitik, yaradıcı düşüncə qabiliyyətlərini inkişaf etdirən mühüm yanaşmadır. Dünyanın sürətlə dəyişən iqtisadi və texnoloji tələbləri ilə ayaqlaşmaq təhsil sistemləri üçün böyük əhəmiyyət daşıyır. Məhz belə bir şəraitdə STEAM tədris metodunun önəmi artır. Bu metod fənlərarası əlaqəni gücləndirir, şagirdlərdə həm nəzəri, həm də praktik bacarıqları inkişaf etdirir və onları real dünya problemlərinin həllinə hazırlayır.**

## STEAM tədris metodunun əhəmiyyəti

STEAM təhsili şagirdlərə elmi bilikləri real həyat problemlərinə tətbiq etməyi öyrədir və onların innovativ düşüncə tərzini gücləndirir. Ənənəvi fənlərarası yanaşmadan fərqli olaraq, STEAM müxtəlif sahələr arasında əlaqə yaradaraq şagirdlərin düşünmə bacarıqlarını inkişaf etdirməyə yönəlir. Məsələn, bir layihə çərçivəsində riyazi modelləşdirmə, mühəndislik prinsipləri və bədii ifadə vasitələri birlikdə istifadə oluna bilər. Beləliklə, şagirdlər problemi təkcə elmi nəzəriyyə ilə deyil, həm də yaradıcı yollarla həll etməyi öyrənirlər.

STEAM metodunun əsas üstünlüyü onun təkcə bilik ötürmək deyil, həm də tənqidi və yaradıcı düşüncəni formalaşdırmaq məqsədi daşımasıdır. Bu metod öyrənənləri passiv bilik qəbulu prosesindən aktiv öyrənmə və layihəəsaslı fəaliyyətlərə cəlb edir.

## STEAM-ın mahiyyəti və təhsildəki rolu

STEAM metodu tədris proqramlarının yenilənməsini – biliklərin yalnız nəzəri deyil, həm də praktik tətbiqini təşviq edir. Məsələn, şagirdlər robot layihələri üzərində işləyərək, eyni zamanda mühəndislik, proqramlaşdırma və dizayn bilikləri qazanırlar. İnteraktiv öyrənmə mühiti yaradan STEAM tədrisi şagirdlərin marağını artırır və onları təhsilə daha çox cəlb edir. Burada məqsəd yalnız bilik ötürmək deyil, həm də problem həlletmə və yaradıcı düşünmə qabiliyyətini formalaşdırmaqdır.

İncəsənətin (A-Arts) tədrisə daxil edilməsi bu metodun fərqləndirici xüsusiyyətlərindən biridir. İncəsənət texniki fənlərlə birləşdirildikdə, dizayn düşüncəsi və yaradıcı yanaşma kimi mühüm bacarıqların inkişafına səbəb olur. Məsələn, STEM layihəsinə sənət inteqrasiyası şagirdlərdə estetik düşüncəni, fərqli perspektivdən baxış tərzini və yeni innovasiyalar yaratma qabiliyyətini artırır.

## STEAM təhsili mütəxəssis hazırlığında

Əmək bazarının dəyişən tələbləri ilə ayaqlaşmaq üçün STEAM mütəxəssisləri innovativ texnologiyalara uyğunlaşmalı və qlobal problemlərin həllində fəal iştirak etməlidirlər. STEAM təhsili şagirdləri yalnız biliklərlə deyil, həm də müasir əmək bazarında tələb olunan əsas bacarıqlarla – komanda işi, problem həlletmə, təşəbbüskarlıq və kommunikasiya bacarıqları ilə təmin edir.

Məsələn, mühəndislik dizaynı əsasında qurulan dərslər şagirdlərə real həyat ssenarilərində problemləri müəyyənləşdirmək və həll yolları tapmaq imkanı verir. Bu, gələcək mütəxəssislərin praktik biliklər əldə etməsini və iş dünyasında daha hazırlıqlı olmalarını təmin edir. Nəticədə, STEAM təhsili əmək bazarının tələbləri ilə təhsil arasındakı boşluğu doldurmağa kömək edir.

STEAM metodologiyası tələbələri əmək bazarında tələb olunan əsas bacarıqlarla təmin edir. Buraya tənqidi düşünmə, komanda işi, rəqəmsal savadlılıq və yaradıcı problem həlletmə bacarıqları daxildir. Bu, xüsusilə sürətlə dəyişən texnologiya sahələrində fəaliyyət göstərən mütəxəssislər üçün əvəzolunmazdır. STEAM təhsili almış məzunlar innovativ düşüncə tərzi ilə istənilən sahədə liderlik göstərə bilir və problemlərə çevik həllər tapmaqda fərqlənirlər.

## Beynəlxalq təcrübələr və onların tətbiqi

**Dünya miqyasında müxtəlif ölkələr STEAM təhsilini genişləndirmək və möhkəmləndirmək üçün bir sıra uğurlu təcrübələr həyata keçirilib. Məsələn:**

**ABŞ:** STEAM təhsili innovasiya mərkəzlərində və texniki məktəblərdə geniş tətbiq olunur. Ölkədəki müxtəlif proqramlar şagirdlərə layihə əsaslı öyrənmə vasitəsilə praktik təcrübə qazandırır. Texnologiyayönümlü məktəblərdə və startap mərkəzlərində şagirdlər real layihələr üzərində işləyirlər. "STEAM for All" təşəbbüsü çərçivəsində müxtəlif sosial qrupların bu tədrisə cəlb olunmasına xüsusi diqqət yetirilir. Bu da təhsildə bərabərliyi artırır. Hazırda ABŞ Əmək Departamenti tərəfindən gücləndirilmiş STEAM hazırlığı tələb olunan milli təhlükəsizlik, maliyyə xidmətləri, aerokosmik sahə, biotexnologiyalar, avtomobilqayırma, inşaat, nəqliyyat, mehmanxana işi, qabaqcıl sənaye texnologiyaları, energetika, səhiyyə, informasiya texnologiyaları və s. kimi onlarla əmək bazarı sektoru ayırılıb.

ABŞ-də STEAM təhsili STEM Təhsil Koalisiyası (STEM Education Coalition) tərəfindən koordinə edilir. Koalisiyaya minlərlə təşkilat, təhsil mütəxəssisi, alim, mühəndis, texniki işçi daxildir. Bu təşkilatın üzvləri təhsil prosesinin bütün mərhələlərinin keyfiyyətli STEAM təhsili ilə təmin edilməsini qarşılarına məqsəd qoyublar.

**Finlandiya:** STEAM metodu tədris proqramlarının mərkəzində dayanır. Müəllimlər müxtəlif fənləri birləşdirərək şagirdlərə problemlərə fərqli rakurslardan baxmağı öyrədirlər. Məsələn, bir təcrübədə şagirdlər həm fiziki təcrübə aparır, həm də nəticələri sənət yolu ilə təqdim edirlər. STEAM metodologiyası təhsil sistemində yaradıcı və problem həll etməyə əsaslanan fəaliyyətlərlə birləşdirilib. Fənlərarası yanaşma sayəsində şagirdlər təhsil prosesinin fəal iştirakçısına çevrilirlər.

**Cənubi Koreya:** STEAM təhsil metodu texnologiya və mühəndislik sahələrində xüsusilə tətbiq olunur. Məktəblərdə robototexnika və süni intellekt üzrə tədris proqramları geniş yayılıb. Bu proqramlar şagirdlərə gələcəyin peşələrinə hazırlaşmaq imkanı yaradır. Texnoloji inkişafın sürətləndiyi bu ölkədə STEAM məktəbləri texnologiya və mühəndislik sahələrinə xüsusi diqqət ayırır, şagirdlərin layihəəsaslı təhsil mühitində iştirakını təşviq edir.

Beynəlxalq təcrübələrdən göründüyü kimi, bu metodologiya həm təhsilin keyfiyyətini artırır, həm də gələcəyin liderlərini formalaşdırır. Müəllimlərin davamlı peşəkar inkişafı, resursların təminatı və ictimai dəstək STEAM təhsilinin uğurlu tətbiqi üçün mühüm amillərdir.



## Azərbaycanda STEAM

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və Elm və Təhsil Nazirliyinin Təhsil İnstitutunun dəstəyi ilə 2019-2020-ci tədris ilindən start götürən "STEAM Azerbaijan" layihəsi, "Rəqəmsal bacarıqlar" və digər proqramların tətbiqinə başlanılması ölkədə STEAM təhsilinə marağı artırıb. 2019-cu ildən artıq bəzi məktəblərdə STEAM layihələrinin tətbiqinə başlanılıb. Bu proqramlar çərçivəsində pilot məktəblərdə STEAM mərkəzləri qurulub və tədris innovativ metodlarla aparılır. Pilot məktəblərdə şagirdlər layihəəsaslı öyrənmə vasitəsilə robot texnologiyaları, proqramlaşdırma və elmi-tədqiqatlarda iştirak edirlər. Həmçinin rəqəmsal savadlılıq, proqramlaşdırma və mühəndislik üzrə təlimlər təşkil edilir.**

"STEAM Azərbaycan"ın reallaşdırdığı STEAM Azərbaycan Festivalı (SAF), hakaton və texnoloji müsabiqələr şagirdləri robototexnika və proqramlaşdırma üzrə yaradıcılıqla məşğul olmağa təşviq edir. Azərbaycanlı şagirdlər beynəlxalq STEAM müsabiqələrində də uğur qazanırlar. Bu, ölkənin istedadlı gənclərinin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini göstərir.

Azərbaycan öz iqtisadiyyatını qeyri-neft sektoruna yönəltməyə çalışdığı üçün STEAM təhsili bu sahədə peşəkar kadrların hazırlanmasında mühüm rol oynayır. İT və texnologiya sahələrində fəaliyyət göstərən startapların inkişafı da STEAM təhsilinin əhəmiyyəti ilə bağlıdır. STEAM təhsili Azərbaycanda gənclərin həm peşəkar inkişafına, həm də qlobal əmək bazarına hazırlıqlı olmasına şərait yaradır.

STEAM təhsilini uğurla tətbiq etmək üçün müəllimlərin peşəkar inkişafı və onların fənlərarası yanaşmanı mənimsəməsi əsas şərtlərdəndir. STEAM təhsili yalnız hər bir fənnin müstəqil tədrisini deyil, həm də bu fənlər arasında əlaqələrin yaradılmasını tələb edir. Bunun üçün müəllimlər həm texniki biliklərə, həm də yaradıcı düşünmə, layihəəsaslı öyrənmə, rəqəmsal savadlılıq və əməkdaşlıq bacarıqlarına malik olmalıdırlar. STEAM təhsilini uğurla tətbiq etmək üçün müəllimlərin fənlərarası bacarıqlarının artırılması əsasdır. Müəllimlərin peşəkar inkişafı STEAM metodologiyasının uğurla tətbiqində həlledici rol oynayır.

"STEAM Azərbaycan" layihəsinin dəstəyi ilə 2021-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində STEAM Mərkəzi yaradılıb. Kafedra statusunda fəaliyyət göstərən mərkəz 8 ixtisasın tədris planına seçmə fənn kimi daxil edilmiş STEAM kursunun tədrisini təşkil edir. Ölkənin müəllim hazırlığı ilə məşğul olan ən qocaman universiteti kimi ADPU həm də STEAM-ın elmi-metodiki, pedaqoji və nəzəri əsaslarını tədqiq edir və müvafiq tədris resursları hazırlayır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti həm də müəllimlərin peşəkar inkişafını dəstəkləmək üçün STEAM sahəsində müxtəlif təlim və proqramlar təşkil edir. Bu təlimlərdə əsas məqsəd müəllimləri yeni texnologiyalarla, rəqəmsal alətlərlə tanış etmək, onları fənlərarası metodları tətbiq etməyə təşviq etməkdir. Müəllimlər üçün təlimlər əsasən layihəəsaslı öyrənmə metodologiyası, robototexnika, proqramlaşdırma, elmi və yaradıcı təcrübələrin hazırlanması üzərində qurulur.

Müəllimlər təlimlərdə fənlərarası əlaqələrin qurulması (Müxtəlif fənlərin birgə necə tədris oluna biləcəyini öyrənirlər. Məsələn, fizika dərslərində robototexnikadan istifadə etmək və ya riyaziyyatla incəsənəti birləşdirən layihələr hazırlamaq müəllimlərə öyrədilir), rəqəmsal savadlılıq və texnologiyaların istifadəsi (STEAM dərslərində 3D çap, proqramlaşdırma dilləri və rəqəmsal laboratoriya avadanlıqları ilə işləmək və rəqəmsal alətlərdən istifadə edərək layihələr hazırlamağı öyrənirlər), layihəəsaslı təlim (Müəllimlərə öyrənənləri passiv bilik qəbulundan aktiv layihələr üzərində işləməyə yönləndirmək təlimləri verilir. Layihəəsaslı təlim şagirdlərdə yaradıcı düşüncə və problem həlletmə bacarıqlarını inkişaf etdirir) və komanda işinin təşviqi (Müəllimlər komanda ilə iş bacarıqlarını inkişaf etdirir və şagirdlərlə qrup halında işləməyi öyrənirlər. Bu, real həyat problemlərinə daha uğurla yanaşmağa imkan verir) modulları üzrə zəruri bilik və bacarıqlara yiyələnirlər.

Gələcəkdə digər ixtisaslarda da STEAM kursunun tədrisi nəzərdə tutulur.

Azərbaycanın təhsil sistemində STEAM metodunun tətbiqi təkcə akademik nəticələrin artırılmasına deyil, həm də ölkənin iqtisadi inkişafına və rəqəmsal transformasiyasına xidmət edir. Yerli layihələr və beynəlxalq uğurlar göstərir ki, Azərbaycan gəncləri texnologiya və elmlə məşğul olduqda böyük potensial nümayiş etdirirlər. Dövlət və özəl sektor arasında əməkdaşlıq gücləndirildikdə isə STEAM təhsili ölkənin gələcək inkişafı üçün daha möhkəm təməl olacaqdır.

STEAM təhsilinin inkişafı ilə bağlı perspektivlər olduqca ümidvericidir. Süni intellekt, robototexnika və virtual reallıq kimi texnologiyaların təhsilə daxil edilməsi STEAM metodunu daha da gücləndirəcək. Təhsil idarəçiləri və təhsil müəssisələri əməkdaşlıq yolu ilə bu metodologiyanı daha geniş yaymaq və müasir təhsil sisteminə inteqrasiya etmək üçün strateji planlar hazırlamalıdırlar.

Bununla yanaşı, STEAM təhsilinin tətbiqi ölkənin iqtisadi və sosial inkişafına da müsbət təsir göstərə bilər. Yenilikçi texnologiyaların inkişafı üçün yaradıcı və tənqidi düşünən gənc nəslə ehtiyac var. Bu yanaşma yalnız akademik nəticələri artırmaqla qalmır, eyni zamanda tələbələri sosial problemlərin həllinə də cəlb edir.

STEAM tədris metodunun geniş yayılması təkcə təhsil sektorunun deyil, ümumilikdə iqtisadiyyatın və cəmiyyətin inkişafına böyük töhfə verəcəkdir. Gələcəyin ən uğurlu peşəkar mütəxəssisinə çevrilmək və sərhədsiz imkanlara malik olmaq istəyən hər kəs yolunu STEAM təhsilindən başlamalıdır.

**Arzu DAŞDƏMİROV,**
**ADPU-nun Fizika fakültəsinin dekanı,**
**STEAM Mərkəzinin rəhbəri,**
**dosent, Əməkdar müəllim**

# Emin Əmrullayev Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun nümayəndə heyəti ilə görüşüb

**Oktyabrın 25-də elm və təhsil naziri Emin Əmrullayev Özbəkistanın "Zamin" Beynəlxalq İctimai Fondunun icraçı orqanının rəhbəri Tamilla Aliyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Özbəkistan arasında təhsil sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib, Füzulidə 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin inşasında Özbəkistan tərəfinin göstərdiyi xüsusi dəstək vurğulanıb.

Eyni zamanda tərəflər sözügedən Fondla gələcək birgə fəaliyyət, qarşılıqlı maraq kəsb edən digər məsələlər üzrə müzakirə aparıblar.



# Təhsil müəssisələrinin maliyyə-mühasibatlıq işçiləri üçün növbəti praktiki seminar





**Oktyabrın 21-də regional təhsil idarələrinin rəhbərləri, maliyyə-mühasibatlıq və insan resursları üzrə əməkdaşlarının, eləcə də Elm və Təhsil Nazirliyindən birbaşa maliyyələşdirilən bir sıra ümumi təhsil müəssisələrinin baş mühasiblərinin iştirakı ilə praktiki seminar keçirilib.**

Seminarın açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli təhsil sahəsindəki əsas strateji hədəflər, bu istiqamətdə görülən işlər, tədbirin məqsəd və əhəmiyyəti barədə iştirakçıları məlumatlandırıb, onlara uğurlar arzulayıb.

Sonra Dövlət Vergi Xidmətinin Sosial Sığorta və Əmək Münasibətlərinə Nəzarət İdarəsinin Əmək münasibətlərinə nəzarət şöbəsinin rəisi Vüsal Qəhrəmanov "Muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulmalar üzrə vahid bəyannamə (hesabatı)" və Dövlət Sosial Müdafiə Fondunun Sosial Sığorta və Fərdi Uçot üzrə Mərkəzi Filialının direktor müavini Ruslan Abuşov "Sosial sığorta ödəmələri ilə bağlı sığortaedənlərə texniki-metodiki dəstəyin göstərilməsi, bu sahədə tətbiq edilmiş yeniliklər" barədə təqdimatlarla çıxış ediblər.

Daha sonra Mərkəzi Aran Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov və Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli təhsil idarələrinin tabeliyində olan müəssisələrdə xərclərin səmərəli və optimal idarəedilməsi istiqamətində görülən tədbirlər barədə təqdimatlar ediblər.

Seminar Bakı Şəhəri üzrə Təhsil İdarəsi, eləcə də Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müvafiq təqdimatları və müzakirələrlə başa çatıb.

# "Ali təhsil müəssisələrinə tələbə qəbulu: təhlil və proqnozlaşdırma"






**Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin təşkilatçılığı ilə "Ali təhsil müəssisələrinə tələbə qəbulu: təhlil və proqnozlaşdırma" mövzusunda tədbir keçirilib.**

Ali təhsil müəssisələri nümayəndələrinin iştirak etdiyi tədbirdə açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli tədbirin əhəmiyyətinə toxunub, ali təhsil siyasətinin effektiv həyata keçirilməsi baxımından bu cür müzakirələrin təşkilinin faydalılığını vurğulayıb. Nazirin müşaviri ali təhsil sahəsində aktual mövzuların müzakirəsi üçün universitetləri təşəbbüskar olmağa dəvət edib. Təhsil proqramlarından danışan Nicat Məmmədli bildirib ki, bu proqramlar həm əmək bazarının tələbləri, həm də məsuliyyətli vətəndaşın yetişdirilməsinə münasibətdə hazırlanarsa, daha optimal və effektiv olar.

Sonda bu cür görüşlərin mütəmadi təşkilinin vacibliyinə diqqət çəkən Nicat Məmmədli tədbirin təşkilatçılarına təşəkkürünü ifadə edib.

Daha sonra Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman "Ali təhsil müəssisələrinə tələbə qəbulu: təhlil və proqnozlaşdırma" mövzusunda təqdimatla çıxış edib. Turxan Süleyman bildirib ki, hazırda elm və ali təhsil siyasətinə dair əsas strateji istiqamətlər müəyyən edilib və hər biri üzrə praktik addımlar atılmaqdadır. Ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların yeni təsnifat layihəsi hazırlanıb və Nazirlər Kabinetinə təqdim edilib. Növbəti mərhələdə doktorantura təhsili ilə bağlı da müvafiq işlərin, o cümlədən doktorantura təhsilinin yenidən təşkili məsələləri öz həllini tapacaq.

Tələbə qəbuluna dair statistik məlumatları təqdim edən Turxan Süleyman növbəti illərdə qəbul planının daha da optimallaşdırılması istiqamətində işlər görüləcəyini diqqətə çatdırıb.

Tədbirin ikinci hissəsində "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" ilə bağlı iştirakçılara məlumat verən Elm və ali təhsil siyasəti şöbəsinin müdir müavini Nərgiz Qaraxanova qeyd edib ki, bu qaydalar ali, orta ixtisas və peşə təhsili pillələrində yeni ixtisasların açılması məsələlərini tənzimləyir. Nərgiz Qaraxanova əlavə edib ki, təhsil proqramı (ixtisas) ölkənin inkişaf istiqamətlərinə uyğun olmalı və cəmiyyətin yüksək səviyyəli, rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsinə xidmət etməlidir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, təklifləri dinlənilib.

**"Qlobal işçi qüvvəsinin dörddə biri rəqəmsal iqtisadiyyatda işləmək üçün ixtisaslarını artırmalı olacaq. İşçilər və müəssisələr hamar karyera inkişafı üçün aydın strategiyalara ehtiyac duyurlar".**

# Gələcək üçün bacarıqlar

## Dünya İqtisadi Forumu "İmkanları açmaq" hesabatında çağırış edir

Bu barədə Dünya İqtisadi Forumunun yeni "İmkanları açmaq" (Unlocking Opportunity report) hesabatında qeyd olunur.

Hesabata əsasən, süni intellekt və maşın öyrənməsi də daxil olmaqla qabaqcıl texnologiya dünyanı görünməmiş sürətlə dəyişir. Bu dəyişikliklər sürətləndikcə, işlərin gələcəyi əsaslı şəkildə dəyişir, buna görə də yeni işlərə keçid qabiliyyəti həmişəkindən daha vacibdir.

Dünya İqtisadi Forumunun araşdırması göstərir ki, 2027-ci ilə qədər bütün iş yerlərinin 23%-i texnologiya və avtomatlaşdırma ilə dəyişdiriləcək, 69 milyon yeni iş yerinin yaradılması və 83 milyon iş yerinin ixtisarı gözlənilir.

Bütün işçilərin demək olar ki, dörddə biri getdikcə rəqəmsallaşan qlobal iqtisadiyyatda inkişaf etmək üçün müvafiq bacarıqlara malik olmalarını təmin etmək problemi ilə üzləşir.

İşçilərə və müəssisələrə sabahkı işlərə uyğunlaşmalarına kömək etmək məqsədilə Dünya İqtisadi Forumunun "İmkanları açmaq" hesabatı rəqəmsal iqtisadiyyatda uğurlu məşğulluğa aparan yolu hamarlamaq üçün dörd əsas sütunu təsvir edir.

Bu keçidlərə rəhbərlik edə biləcək çərçivəyə nəzər salaq.

### 1. Yeni imkanlar üçün yenidənhazırlıq və bacarıqların artırılması

Ömürboyu yalnız bir peşəni öyrənmək günləri geridə qaldı. Bugünkü iş bazarında aktual qalmaq üçün işçilər davamlı öyrənmə və yenidən bacarıqları mənimsəməlidirlər. İş bacarıqlarının 44%-nin beş il ərzində dəyişməsi gözlənildiyi üçün həm fərdlərin, həm də şirkətlərin ömürboyu öyrənməyə sərmayə qoyması vacibdir.

Bunun bir nümunəsi Yaponiyadakı Randstad Boot Camp kurikulumudur. Bu təşəbbüs qeyri-texniki sahələrdən olan işçilər üçün intensiv təlim təmin edir ki, bu da onlara tələb olunan rəqəmsal vəzifələrə keçməyə imkan verir. Praktik təcrübə və rəqəmsal bacarıqları birləşdirən kurslarla iştirakçılar əhəmiyyətli bacarıq boşluqlarını aradan qaldıraraq və karyera yüksəlişini dəstəkləyərək IT-yə hazırlaşırlar.




### 2. İşçi ilə işəgötürən arasında uyğunluğun yaxşılaşdırılması

Əmək bazarı inkişaf etdikcə işçilərlə işəgötürənlər arasında qarşılıqlı əlaqə üsulları da dəyişir. Çevik iş şəraiti, uzaqdan iş və evdə alternativ məşğulluq modelləri şirkətlərə daha geniş kadr ehtiyatına çıxış əldə etməyə və işçilərə ehtiyaclarına uyğun vəzifələr tapmağa imkan verir.

İndoneziyada "Sekola Menenga Kejuruan - Pusat keunggulan" (SMK-PK) hökumət proqramı, peşə hazırlığını bazar tələblərinə uyğunlaşdıraraq ölkənin peşə təhsil müəssisələrini canlandırmaq məqsədi daşıyır. Sənaye müəssisələri ilə müəllimlər arasında sıx əlaqələr quraraq tələbələr lazımi bacarıqlara yiyələnirlər və yüksək tələbat olan işləri daha asan tapırlar. İşçilərlə işəgötürənlər arasındakı münasibətləri yaxşılaşdırmaq üçün bu yanaşma işsizliyin azaldılmasına kömək və daha yüksək iş məmnuniyyətini təmin edir.

### 3. İşçilərin sosial müdafiə sistemləri

Başqa işə keçid həmişə hamar keçmir, buna görə işçilərin etibarlı müdafiəsi lazımdır. Hökumətlər və müəssisələr iş dəyişikliyinin yükünü asanlaşdıra biləcək sosial müdafiə sistemlərinin yaradılması üzərində birlikdə işləməlidirlər. Bu müdafiə tədbirləri işsizlik sığortası, subsidiya verilən istirahət müavinətləri və ya ədalətsiz işdən çıxarılmaqdan qoruyan əmək qanunvericiliyi formasını qəbul edə bilər.

Buna bariz nümunə Almaniyadır, burada enerji sənayesinə aktiv yanaşma sayəsində kömür sənayesindən qovulan işçilər dəstək alıblar. İxtisasın artırılması və yeni iş axtarışında kömək proqramları sayəsində Almaniya sənayedəki genişmiqyaslı dəyişikliklərin nəticələrini yumşaltmağa müvəffəq oldu, işçilərə gələcəyə yönəlmiş sabit iş tapmaq imkanı verdi.

### 4. Maneələri aşmaq üçün çoxtərəfli əməkdaşlıq

Ən səmərəli işçi qüvvəsi keçidlərindən bəziləri sənaye sahələri əməkdaşlıq etdikdə baş verir. Resursları birləşdirmək, təlim proqramlarını bölüşmək və sənayelərarası tərəfdaşlıq yaratmaqla şirkətlər işçilərinin hətta müxtəlif sahələrdə belə yeni rollara hazır olmasını təmin edə bilərlər.

Cənubi Afrikada "Afrika üçün Bacarıqlar Təşəbbüsü" (SIFA) gənc işçilərin texniki bacarıqlarını inkişaf etdirmək məqsədilə hökumətləri, təhsil müəssisələrini və sənayeləri bir araya gətirdi. Bu çoxtərəfli yanaşma təkcə işsizliklə mübarizəyə kömək etmir, həm də dəyişən iqtisadiyyatda inkişaf etməyə hazır olan, daha uyğunlaşa bilən işçi qüvvəsi yaradır.

Beləliklə də Dünya İqtisadi Forumunun "İmkanları açmaq" çərçivəsi dəyişən iş dünyasında naviqasiya etmək məqsədilə həm işçilər, həm də işəgötürənlər üçün aydın bir yol təqdim edir.

Fasiləsiz öyrənməyə diqqət yetirməklə, iş uyğunluğunu təkmilləşdirməklə, güclü işçilərin müdafiəsini təmin etməklə və əməkdaşlığı inkişaf etdirməklə biz gələcəyin tələblərinə cavab verməyə hazır olan möhkəm işçi qüvvəsi yarada bilərik.

Sənayelər təkamül etməyə davam etdikcə, bu strategiyalar işçilərə böyümə sektorlarında sabit, mükafatlandırıcı rolları təmin etməkdə köməklik göstərəcək.

**Oruc MUSTAFAYEV**

# Elm və Təhsil Nazirliyi və Baş Prokurorluğun nümayəndə heyəti Qarabağ Universitetinin tələbələri ilə görüşüb

Oktyabrın 22-də Elm və Təhsil Nazirliyi və Baş Prokurorluğun nümayəndə heyəti Qarabağ Universitetinin tələbələri ilə görüşüb.

Hüquqşünaslıq, tarix və beynəlxalq münasibətlər ixtisasları üzrə təhsil alan tələbələrin iştirak etdiyi görüşün əsas məqsədi birgə tədbirlərin təşkili və gələcəkdə prokurorluq orqanlarında çalışmaq istəyən gənclərin təhsilinə dəstək verilməsi istiqamətində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi olub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov açılış nitqi ilə çıxış edərək tədbir iştirakçılarını salamlayıb və ölkə rəhbərliyi tərəfindən universitet qarşısında qoyulan prioritetləri diqqətə çatdırıb. Rektor vurğulayıb ki, tələbələrin inkişafını təmin etmək məqsədilə faydalı tərəfdaşlıqlar yaratmaq universitetin məqsədləri sırasındadır və bu istiqamətdə Baş Prokurorluqla əməkdaşlıq olduqca əhəmiyyətlidir.

Görüşdə iştirak edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli hüquq təhsilinin inkişafı təşəbbüsləri mövzusunda çıxış edib. Aparat rəhbəri bildirib ki, hüquq sahəsi daim inkişafdadır. Bu inkişafdan irəli gələn tələblərə və yeniliklərə adaptasiya olmaq vacibdir. Mətin Kərimli vurğulayıb ki, peşəkar mütəxəssis olmaq üçün tələbələr elmi-nəzəri biliklərlə yanaşı, müvafiq kommunikasiya bacarıqlarına da yiyələnməlidirlər.

Çıxış edən Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov karyera imkanları və elmi araşdırmalar üçün əməkdaşlıqla bağlı təkliflərini irəli sürüb. İdarə rəisi diqqətə çatdırıb ki, tələbələrin prokurorluq orqanlarında təcrübə keçmələri və ictimai köməkçi institutlarında iştirakları təmin edilir. Tural Aslanov əlavə edib ki, növbəti tədris illərində Qarabağ Universitetinin tələbələri üçün də bu prosesin təşkili nəzərdə tutula bilər.

Görüş sual-cavab formatında davam etdirilib, tələbələrin fikirləri dinlənilib.

Sonra Elm və Təhsil Nazirliyi, Baş Prokurorluq və Qarabağ Universiteti arasında üçtərəfli görüş formatında əməkdaşlıq perspektivləri müzakirə edilib. Görüşdə Baş Prokurorluğun struktur bölmələri və tabe prokurorluqlarda Qarabağ Universitetinin tələbələri üçün təcrübə və karyera imkanları, prokurorluq əməkdaşları tərəfindən tələbələrə seminar, vebinar və təlimlərin keçirilməsi, aktual mövzular üzrə birgə elmi-tədqiqat işlərin həyata keçirilməsi və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

## Mətin Kərimli:

## “Peşəkar mütəxəssis olmaq üçün tələbələr elmi-nəzəri biliklərlə yanaşı, müvafiq kommunikasiya bacarıqlarına da yiyələnməlidirlər”












# “ƏN BÖYÜK HƏDƏFİM Azərbaycanımıza töhfə verməkdir”

## Əli Məmmədzadə: “Qarabağ Universitetini seçdim, doğma Qarabağımızın gündən-günə çiçəklənməsini arzulayıram”

**Əli Məmmədzadə Qarabağ Universitetinin tələbəsi, Bakının Kürdəxanı qəsəbəsindəki 113 nömrəli tam orta məktəbin məzunudur. O, söhbətə belə başladı: “Tarix ən çox sevdiyim fənn idi. Fizikanı mənimsədikcə daha çox sevdim və X sinifdə oxuyanda ali məktəbə qəbul imtahanlarına III deyil, II ixtisas qrupu üzrə qatılmağa qərar verdim. İnformatikanı da sevdiyim üçün texnologiya sahəsinə yönəldim. İnformatika, fizika ilə daha dərindən məşğul olaraq kompüter mühəndisliyinə hazırlaşdım”. İxtisas qrupları arasında keçidə səbəb nə olub, görəsən? Ə.Məmmədzadənin sözlərinə görə, fizikanı sosial şəbəkələrdə sevib: “Sosial şəbəkələri izləyir, bəzi akademiklərin öz səhifələrində paylaşdıqları eksperimentlərə maraq göstərirdim. Bu da məndə böyük maraq oyatdı. Yavaş-yavaş bu fənnə marağım artdı. Hiss etdim ki, fizikanı daha çox oxuyuram”.**





### Mənim müəllimim

Əli Məmmədzadənin hekayəsində maraqlı bir məqam var. Onun fənlərə olan sevgisi ilə sevdiyi müəllim fərqlənir. “Ömrümün sonunadək həyatıma təsir edən müəllim kimi unutmayacağım yeganə insan Azərbaycan dili və ədəbiyyat fənnindən dərs deyən Gülnar Fərəcovadır. Hazırda sahib olduğum hər şeyə, hətta həyatda bir hədəfim, məqsədli fəaliyyətim, öz düşüncələrimin olması belə Gülnar müəllimdən qaynaqlanır. Tarixdən fizikaya yönələndə də, ixtisasımı seçəndə də Gülnar müəllimimlə məsləhətləşdim. Hətta Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransında Qarabağ Universitetinin tələbəsi kimi mənə söz verilmişdi. Burada edəcəyim çıxışın mətnini Gülnar müəllimə də göstərdim”.

Əli Məmmədzadənin fikrincə, müəlliminin onun üzərində təsiri çox böyükdür: “Gülnar müəllim formalaşdırıb mənim fikirlərimi, dünyagörüşümü. Oxuduğum kitabları onun tövsiyəsi ilə seçmişəm. Əgər bu təsiri nəzərə alsaq, məktəbin rolunun nisbətən böyük olduğunu deyə bilərəm. Amma məktəblə yanaşı, ailə, əhatə dairəsi də çox önəmlidir”.

### Sosial layihələrdə

“Gülnar müəllim və direktorumuz Gültəkin müəllim məktəbimizin bir sıra təşəbbüslərinin gerçəkləşdirilməsinə məni də cəlb etdilər”, - deyən gənc tələbə bu məsuliyyətin öhdəsindən uğurla gəlib: “Bacardığım qədər məktəbimizin layihələrində fəallıq göstərdim. Tamaşalar yazıb, kiçik filmlər çəkdik. Tamaşalarımıza, filmlərimizə hekayələri özümüz yazır, ssenarisini qurur, özümüz də çəkirdik. Qadın hüquqları ilə bağlı hazırladığımız film “YouTube”da 100 minə yaxın izləndi. Bu filmdən sonra bizə öz taleyi haqqında yazan xanımlar oldu. Geri dönüş edib təşəkkür edənlər belə vardı. Çox layihələr hazırlamışdıq, amma həmin layihə geri dönüş aldığımız ilk layihə oldu”.

### “Universitetin ən çox tələbəyönümlü siyasətini bəyəndim”

Humanitar fənlərə maraq göstərib, tarixi sevib, fizikanı seçib, kompüter mühəndisi olmağa qərar verib.

İxtisasına qərar verəndən sonra sıra bu ixtisasa harada yiyələnəcəyini müəyyənləşdirməyə gəlib: “Qarabağ Universiteti ilə bağlı məlumatlar diqqətimi çəkdi. Araşdırdım və bu universiteti seçməyə qərar verdim. Universitetin ən çox tələbəyönümlü siyasətini bəyəndim. Yüksək səviyyəli müəllim heyəti, keyfiyyətli təhsil olacağına dair təsəvvür yarandı”.

Əli deyir bütün uşaqlığı boyu Qarabağ adı hər zaman nisgil dolu hisslərlə anılıb. Qarabağ torpaqlarında işğal, qan, haqsızlıq, zülm barədə oxuyan, Vətən müharibəsi dövrünü, böyük Zəfəri yaşayan bir məktəblinin başqa seçimi ola bilərdimi? O da ürəyində baş qaldıran hisslərə təslim olub və seçimini edib: “Qarabağ Universitetini seçdim, çünki doğma Qarabağımızın gündən-günə çiçəklənməsini arzulayıram”.

“Qarabağı görmək, burada yaşamaq uşaqlığımın böyük bir hissəsinin ən böyük xəyalı idi. Bu, Qarabağ Universitetində oxumaq üçün bir səbəbdir. Eyni zamanda Qarabağda rahat təhsil ala biləcəyimiz mühit var”, - deyən Ə.Məmmədzadə məktəbli ikən işğal tarixini əzbərlədiyi torpaqlarda gəncliyinin ən gözəl çağlarını - tələbəliyini yaşayır.

“Ən böyük hədəfim Azərbaycanımıza töhfə verməkdir”, - deyir Əli Məmmədzadə: “Elm sahəsi, sosial layihələr ola bilər. Əlimdən nə gəlirsə, ölkəm üçün etməyə hazıram”.

**Ruhiyyə DAŞSALAHLI**

# İLK İMTAHAN, YÜKSƏK NƏTİCƏ



## Məktəbəqədər təhsil müəssisələrində diaqnostik qiymətləndirmə keçirilib

**19-20 oktyabr tarixlərini əhatə edən məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan təhsilverənlərin diaqnostik qiymətləndirilməsi yekunlaşıb.**

Prosesin test imtahanı mərhələsi respublikanın müxtəlif şəhər və rayonları üzrə 28 imtahan mərkəzində təşkil olunub. Diaqnostik qiymətləndirmədə 90 faiz davamiyyət qeydə alınıb.

Qeyd edək ki, ilk dəfə təşkil olunan məktəbəqədər təhsil müəssisələrində fəaliyyət göstərən təhsilverənlərin diaqnostik qiymətləndirilməsinin məqsədi pedaqoji heyətin təlim ehtiyaclarını müəyyən edərək sertifikatlaşdırma prosesinə hazırlığı təmin etməkdir.

# 60 bal toplayan tərbiyəçi-müəllim:

## “Seçdiyim peşəni, uşaqları çox sevirəm”



**“Azərbaycan müəllimi” qəzeti məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan tərbiyəçi-müəllim və metodistlər üçün keçirilən diaqnostik qiymətləndirmə imtahanında ən yüksək nəticə göstərən Balakən şəhər 3 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Sədaqət Bayramova ilə həmsöhbət olub.**

## “Diaqnostik qiymətləndirmə peşəkar fəaliyyətimizin daha da təkmilləşməsinə yönəlmiş bir addımdır”

*– Diaqnostik qiymətləndirmə imtahanında ən yüksək nəticə göstərərək 60 bal topladınız. Təbrik edirik! Bu uğurunuzun səbəbini necə izah edərdiniz?*

– Çox təşəkkür edirəm! Çox sevindim ki, belə yüksək nəticə qazandım. Sualların çətin və məntiqə əsaslanan olduğunu bilirdik, amma imtahanın nəticəsini görəndə sevincimdən gözlərim doldu. Düşünürəm ki, uğuruma səbəb uzun illər boyu qazandığım təcrübə və kollektivimizlə birgə keçirdiyimiz təlimlər oldu. Biz hamımız Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunan diaqnostik qiymətləndirmə imtahanına ciddi hazırlaşdıq. Həmçinin, Şəki-Zaqatala Regional Təhsil İdarəsi tərəfindən təşkil olunan təlimlərə də qatıldıq. Mən bu peşəni və uşaqları çox sevirəm. Bu sevgim uğuruma səbəb oldu.

*– İmtahana hazırlıq necə keçdi?*

– İmtahan öncəsi kollektivimizlə müzakirələr apardıq, təlimlərdə aktiv iştirak etdik. Balakən şəhər 3 nömrəli körpələr evində müəllim yoldaşlarımızla birlikdə hazırlıqlarımızı gücləndirdik. Hər birimiz bu qiymətləndirmə imtahanına böyük məsuliyyətlə yanaşdıq, çünki bu, bizim peşəkar fəaliyyətimizin daha da təkmilləşdirilməsinə yönəlmiş bir addımdır. Mən də kollektivlə birgə bütün təlimlərdə fəal iştirak etdim. Yüksək nəticə gözləyirdim, amma 60 bal toplamaq çox sevindirici oldu.

*– Bu peşəni seçməyinizin səbəbi nə idi?*

– 1996-cı ildə Bakı Məktəbəqədər Pedaqoji Texnikumunu bitirdikdən sonra uşaqlarla işləmək istədiyimi tam əminliklə dərk etdim. 1998-ci ildən Balakən şəhər 3 nömrəli körpələr evində çalışıram və hər zaman uşaqların inkişafına, onların təlim-tərbiyəsinə böyük önəm vermişəm. Onların düzgün yetişdirilməsi mənim üçün çox vacibdir. Bu peşə mənim üçün sadəcə iş deyil, həyatımın bir parçasıdır.

*– İmtahanda qarşınıza çıxan suallar necə idi?*

– Suallar çox düşündürücü və məntiqə əsaslanan idi. Bəzi sualların cavabını tapmaq üçün əvvəlcə dərindən düşünməli oldum. Bu, mənim üçün maraqlı bir təcrübə oldu, çünki suallar bir tərəfdən bizim nəzəri biliklərimizi, digər tərəfdən isə praktik təcrübəmizi yoxlayırdı. Hər bir müəllimə bu çətin və şərəfli peşəmizdə uğurlar arzulayıram.

*– Ailənizin və kollektivinizin bu uğurunuzdakı rolu barədə nə deyə bilərsiniz?*

– Əlbəttə, uğurumun arxasında ailəmin, xüsusilə də həyat yoldaşımın dəstəyi dayanır. Onların mənə verdiyi dəstək olmasaydı, bu qədər irəli gedə bilməzdim. Eyni zamanda kollektivimizin də rolu böyükdür. Bir-birimizə hər zaman dəstək oluruq və bu da bizi daha güclü edir. Bizim bağçamızda hər bir müəllim çox fəaldır və bir-birimizə kömək edirik.

### “Bu uğur qazandığı təcrübənin, zəhmətin nəticəsidir”

Balakən şəhər 3 nömrəli körpələr evi-uşaq bağçasının bizimlə həmsöhbət olan müdiri Mehriban Mehdiyeva bütün müəllimləri imtahanda göstərdikləri yüksək nəticələrə görə təbrik edib və onların hər birinin öz peşəsinə sevgi və məsuliyyətlə yanaşdıqlarını vurğulayıb. M.Mehdiyeva Sədaqət Bayramovanı, xüsusilə təbrik edərək, onun çox çalışqan, məsuliyyətli və peşəkar bir müəllim olduğunu bildirib. “Sədaqət müəllim hər zaman fədakarlığı və işinə olan sevgisi ilə seçilib. Bu uğur illər boyu qazandığı təcrübənin və zəhmətinin nəticəsidir”, – deyə Mehriban xanım qeyd edib. O, eyni zamanda digər müəllimlərə də sertifikatlaşdırma imtahanında uğurlar arzulayaraq, bütün kollektivin bu imtahanlardan da uğurla çıxacağına inamını ifadə edib.

“Azərbaycan müəllimi” qəzeti olaraq Sədaqət Bayramovanı və digər uğur qazanan müəllimləri ürəkdən təbrik edir və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

**Aynur ARAZ**
**Mərkəzi Aran və Şəki-Zaqatala üzrə regional təmsilçi**

# 62 yaşlı MÜƏLLİM - arıçı



## İlqar Cəlalov:

### “Müəllim olmaq üçün imtahan verməli, həqiqətən bu işi bacaracağını sübut etməlisən”

**İlqar Cəlalov uzun illər meşə təsərrüfatında çalışıb, texniki meşə ustasından direktor vəzifəsinədək yüksəlib. Ömrünün payızında yeni peşənin yolunu tutub, müəllim olmaq sevdasına düşüb.**

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsiykən ona arıçılıq ixtisası üzrə ixtisas fənn müəllimi olmaq təklif edilib, o da qəbul edib. İndi Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində “Arı ailələrinin vəziyyəti, ziyanverici və xəstəlikləri” və “Arıçılığın təşkili, arının biologiyası, fiziologiyası, qidalanması və xüsusi ehtiyacları” modullarından həvəslə dərs deyir.



“Azərbaycan müəllimi”nə müsahibəsində İlqar Cəlalov necə müəllim olmağından, müəllimlikdə ilk addımlarından danışıb. Dediyinə görə, orta məktəbi kənddə bitirib, ali təhsili Rusiyada alıb, hərbi xidməti Uzaq Şərqdə keçib.

### Bal yarışlarının qalibi

İlqar Cəlalov Qəbələ rayonunun Bunut kəndindəndir. 40 ilə yaxın Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində olan qurumlarda meşə təsərrüfatı sahəsində çalışıb. Elə burada işləyə-işləyə meylini arıçılığa salıb. Çox da ki, arı meşə canlılarındandır, arıçılıqda uğurdan əvvəl uğursuzluq yaşayıb, amma indi arıçılıq üzrə müəllimdir: “Balı çox sevdiyim üçün arılara marağım vardı. Marağım həm də işimdən irəli gəlirdi. Axı meşə təsərrüfatı ilə arıçılıq vəhdət təşkil edən sahələrdir. Meşəçi olaraq arının əhəmiyyətini bilirəm. Ona görə arı bəsləməyə başladım. Amma 3 il arılarım qışlamadan çıxmadı. Bir gün bazarda dəzgahın üstündə Qulam Hüseynlinin “Arıçılıq” kitabını gördüm. Kitabı alıb oxuyandan sonra anladım ki, arıçılıq bir elmdir. Bundan sonra hər şey dəyişdi, nəinki arılarım qışlamadan çıxdı, bal yarışlarına qatıldım, qalib oldum”.

Bundan sonra anlayıb ki, arılara kor-koranə yanaşmaqla nə onlardan bal almaq olar, nə də onları yaza çıxartmaq. Daha çox oxuyub, müxtəlif mənbələri araşdırıb. Müxtəlif səviyyəli konfranslara qatılıb, məşhur rus arıçıların mühazirələrini dinləyib. Azərbaycanda və Türkiyədə keçirilən beynəlxalq konfranslara istehsal etdiyi balla qatılıb: “2022-ci ildə İstanbulda keçirilən Dünya Arıçılıq Konqresində iştirak etdim, Azərbaycanda 9 beynəlxalq konfrans keçirilib və hamısının iştirakçısı olmuşam. Müxtəlif ölkələrdən təcrübəli arıçıların iştirakı ilə keçirilən həmin konfranslarda təşkil olunan bal yarışlarının 4-nün qalibiyəm. Balım fiziki-kimyəvi laborator analizlərin nəticələrinə görə, 2 dəfə birinci, 1 dəfə 2-ci, 1 dəfə isə 3-cü yeri tutub. Təbii bal istehsalına görə 5 medalım var”.

### Peşə təhsili almaq müəllimlik həvəsi yaradıb

İlqar Cəlalov arıçılıqda uğur qazanandan sonra peşə təhsili almaq istəyinin nədən qaynaqlandığına da aydınlıq gətirib: “Bazarda kitab dəzgahında qarşıma çıxan “Arıçılıq” kitabı bu sahədə böyük dönüş əldə etməyimi təmin etdi. Bunu görəndən sonra daha çox oxuyur, daha çox araşdırırdım. Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində ötən il 1 illik qruplar açıldığını eşidəndə mən də oxumağa qərar verdim. Hiss edirdim ki, hələ öyrənməliyəm və burada öyrənə biləcəyim nəsə olacağına inanırdım. Ona görə də peşə təhsili üçün müraciət etdim, qəbul olundum. Qrupda 18 nəfər idik. Qrup yoldaşlarım üçün də mənimlə bir yerdə təhsil almaq maraqlı oldu. Arıçılıqda metod və üsullar var ki, onları tələbə yoldaşlarımla paylaşırdım. Dərslərimiz çox maraqlı keçirdi. Bəzən özümü müəllim kimi hiss edir, müəllim olaramsa, başqa nələri paylaşa biləcəyimi xəyal edirdim. Tələbə yoldaşlarımla bilgi paylaşımı mənim üçün əsl sınaq oldu. Təhsilimi əla qiymətlərlə başa çatdırıb peşə qazandım, sənədli arıçı oldum”.

Ötən tədris ilində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın Tədbirlər Planına uyğun olaraq məcburi köçkünlər üçün Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində qısamüddətli kurslar təşkil ediləndə müəssisənin uğurlu tələbələrindən biri kimi İlqar Cəlalovu da prosesə cəlb ediblər: “Məcburi köçkünlərin təhsil aldığı arıçılıq qrupuna təcrübəmi bölüşməyi təklif elədilər. Mən də məmnuniyyətlə bunu etdim”.

### “Arıçılığı öyrətmək, bu işin müəllimi olmaq arzum idi”

Bu, təcrübəli arıçıda sevdiyi məşğuliyyət üzrə müəllim olmaq həvəsi yaradıb. Müəllimliyi ilk dəfə onda sınaqdan çıxaran İ.Cəlalov arıçılığı öyrətməyi daimi işinə çevirməyə qərar verib: “Arıçılığın biologiyasını, fiziologiyasını oxuyub öyrənəndən sonra onun dərin bir elm olduğunu anladım. Bundan sonra kənddə, rayonda tanıdığım arıçıları həmişə maarifləndirmişəm. Yəni, onsuz da dinləyən hər kəsə arıçılıqdan danışmağı sevirdim. Peşə təhsili alandan sonra ürəyimdən keçənlər reallaşdı. Arıçılığı öyrətmək, bu işin müəllimi olmaq arzum idi, o da həyata keçdi”.

Müəllim olmaq üçün mərkəzləşdirilmiş qaydada keçirilən peşə təhsili müəssisələrinə müəllimlərin işə qəbulu imtahanlarına qatılıb: “Arıçılıq müəllimi olmaq üçün təsərrüfatının olması, arıçılıq təcrübənin olması, yaxud peşə təhsilinin, təhsi sənədinin olması yetərli deyil. Müəllim olmaq üçün imtahan verməli, həqiqətən bu işi bacaracağını sübut etməlisən. Peşə təhsili müəssisələrində arıçılıq müəllimi üzrə vakant yer olduğunu biləndə müəllimlərin işə qəbulu müsabiqəsinə qatıldım, mərkəzləşdirilmiş qaydada keçirilən imtahanlarda iştirak etdim. Həm kurikulum, həm də ixtisasım üzrə suallara cavab verib, keçid balından da yuxarı bal toplayaraq, bu ixtisas üzrə müəllim olmaq şansı qazandım. Bu gözəl ixtisası arıçı olmaq istəyənlərə öyrətmək mənim üçün xoşdur. Müəllimlikdə çox həvəslə işləyirəm”.

**Ruhiyyə DAŞSALAHLI**

# Dövlət Proqramı təqaüdçüləri

# "Böyük Britaniyada təhsil almaq liderlik bacarıqlarımı inkişaf etdirdi"

***"Azərbaycan müəllimi" bu dəfə oxuculara "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" çərçivəsində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "University of Sheffield" ali təhsil müəssisəsində "İnklüziv təhsil" ixtisası üzrə doktorantura səviyyəsində təhsil alan Turanə Abdullayevanı təqdim edir.***

**Tanıtım:** Turanə Madar qızı Abdullayeva ilk təhsilini 1996-2006-cı tədris illərində Samux rayonu, Sərkar kənd tam orta məktəbində alıb. 2010-cu ildə Azərbaycan Dillər Universitetinin "İngilis dili" ixtisası üzrə təhsilini fərqlənmə diplomu ilə bitirərək, Qafqaz Universitetinin (Bakı Mühəndislik Universiteti) "İngilis dili və ədəbiyyatı" ixtisası üzrə magistraturasına daxil olub. 2012-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib, elə həmin ildə Qafqaz Universitetində İngilis dili və ədəbiyyatı kafedrasının "Dünya ədəbiyyatı" ixtisası üzrə doktoranturasında təhsil almaq hüququ qazanıb.

2016-2017-ci illərdə Bakı Mühəndislik Universitetinin "İngilis dili və ədəbiyyatı", 2018-2022-ci illərdə "İngilis dili" kafedrasında müəllim kimi fəaliyyət göstərib. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" qaliblərindən biri olaraq hazırda Böyük Britaniyanın Şeffild Universitetində ikinci PhD təhsilini davam etdirir.

Beləliklə də müsahibimiz Turanə Abdullayeva ilə söhbətimizə orta məktəb illərindən körpü salırıq.




## "Dövlət təqaüdü ilə təhsil alan gənclər öyrəndiklərini vətənləri naminə tətbiq etmək üçün daha böyük məsuliyyət hiss edirlər"

### Şeffild Universiteti "Azərbaycan tələbə cəmiyyəti"nin prezidenti

– Şeffild Universitetində artıq üçüncü ildir ki, təhsil alıram. Bu illər ərzində həm əyani təhsil almış, bir sıra ixtisasımla bağlı kursları tamamlamış, eyni zamanda da bir neçə layihələrdə işləmişəm. Əldə etdiyim təcrübələr həm ixtisasım baxımdan əhəmiyyətlidir, həm də gələcəkdə Azərbaycanda tətbiqi vacib olan məsələlərdir.

Bu ilin fevral ayından Şeffild Universitetində asisstant müəllim olaraq işləyir, seminarlar aparır, magistrların elmi rəhbəri vəzifəsini həyata keçirirəm. Hazırda Şeffild Universitetində yenidən fəaliyyətə başlayan "Azərbaycan tələbə cəmiyyəti"nin prezidentiyəm.

Bu iki il ərzində dissertasiya mövzumla bağlı "Postcolonial Disability, Childhood and Education Studies Inclusive Education in a Post-Soviet Context: A Case of Azerbaijan" adlı tədqiqat işim "The Routledge Handbook of Postcolonial Disability Studies" dərc edilib. Bunlardan əlavə olaraq, çoxsaylı elmi konfranslarda, simpoziumlarda öz elmi işlərimlə çıxış etmişəm. Bir neçə gün əvvəl BERA (British Educational Research Association) tərəfindən tədqiqat işim "Highly Commended Abstract" mükafatına layiq görülüb.

### "Dövlət Proqramı bütün bacarıqlı və həvəsli tələbələrin xaricdə təhsil almaq üçün bərabər imkanlara malik olmasını təmin edir"

*– Gənclərimizin xaricdə təhsilə marağı güclənib. Siz ölkəmizdə xaricdə təhsil dövlət proqramlarının əhəmiyyəti barədə nə deyərdiniz?*

– İlk növbədə, xaricdə təhsil proqramı qlobal rəqabətədavamlı işçi qüvvəsinin formalaşmasına kömək edir.Gənclərimiz xarici ölkələrin nüfuzlu universitetlərində yüksək keyfiyyətli təhsil almaq imkanı əldə etməklə Azərbaycanın iqtisadiyyatına və sosial inkişafına fayda verə biləcək yeni bilik, bacarıq və təcrübələrlə qayıdırlar. Bu, ölkəmizin tərəqqisi üçün vacib olan texnologiya, tibb, elm, sosial sahə və s. kimi vacib əhəmiyyətli sektorlardakı boşluqları aradan qaldırmağa kömək edəcəkdir.

İkincisi, dövlət təqaüdü ilə təhsil alan gənclər geri qayıtmaq və öyrəndiklərini vətənlərinin rifahı naminə tətbiq etmək üçün daha böyük məsuliyyət hiss edirlər. Bu, Azərbaycanın ən yaxşı və ən parlaq gənclərinin milli inkişafa töhfə verməsini təmin edə bilər.

Dövlət Proqramı bütün bacarıqlı və həvəsli tələbələrin xaricdə təhsil almaq üçün bərabər imkanlara malik olmasını təmin edir. Bu, bərabərsizliyi azaldır və daha inklüziv cəmiyyət yaratmağa kömək edir. Xaricdə təhsil alan azərbaycanlı tələbələr dünyanın hər yerində öz yaşıdları, professorları və digər peşəkarlarla geniş əlaqələr qururlar. Bu əlaqələr sonradan qlobal miqyasda ölkəmizə fayda verən əməkdaşlıq layihələri, tərəfdaşlıqlar və imkanlar yarada bilər.

Yekun olaraq qeyd etmək istərdim ki, xaricdə təhsil proqramı Azərbaycanın gələcəyi üçün vacib əhəmiyyət kəsb edir, gələcəyə bacarıqlı mütəxəssislər, liderlər və novatorlar yetişdirməklə ölkəmizin gələcək inkişafı üçün qoyulmuş sərmayə hesab edirəm.

*– Konkret olaraq "2019-2023 Dövlət Proqramı" sizə nə verdi? Hansı təcrübə və səriştələri qazandırdı?*

– Bildiyimiz kimi, Şeffild Universiteti müstəqil tədqiqata və tənqidi düşüncəyə böyük diqqət yetirir. Mənə mürəkkəb problemləri təhlil etmək, qiymətləndirmək və həll yolları haqqında tənqidi düşünmək bacarığımı inkişaf etməyə kömək etdi. Bu, Azərbaycanda həm peşəkar, həm də akademik şəraitdə əsas bacarıqlardandır. Böyük multikultural mühit olan Britaniyada təhsil mənə dünyanın hər yerindən gələn tələbələrlə ünsiyyət qurmağa imkan verir. Bu təcrübə bizə beynəlxalq problemlər və mədəni müxtəliflik haqqında anlayışımızı zənginləşdirərək daha geniş qlobal perspektiv verdi. Mən müxtəlif mədəniyyətdən olan insanlarla əməkdaşlıq etməyi öyrəndim, bunun qlobal biznesdə və ya beynəlxalq münasibətlərdə, Azərbaycanın digər ölkələrlə əlaqələrinin gücləndirilməsində faydalı olacağını düşünürəm. Böyük Britaniyada yaşamaq və təhsil almaq mənim liderlik bacarıqlarımı inkişaf etdirdi.

### "İnklüziv təhsil və müəllim hazırlığı böyük potensiala malik mövzudur"

*– Bir neçə kəlmə seçdiyiniz ixtisasın ölkəmizə verə biləcəyi dividendlər barədə...*

– Mən qısaca olaraq onu demək istərdim ki, inklüziv təhsil və müəllim hazırlığı proqramı Azərbaycanın təhsil sisteminin gələcəyini formalaşdırmaq üçün böyük potensiala malik mövzudur. Sinifdə bərabərliyi müdafiə edəcək, bütün tələbələrin ehtiyaclarını bərabər şəkildə ödəyəcək müəllimlər hazırlamaqla və milli təhsil islahatlarına töhfə verməklə mən daha da inklüziv, çiçəklənən və sosial cəhətdən mütəşəkkil Azərbaycan cəmiyyəti görürəm.

*– Şeffild Universitetində sizin tədqiqatlarınız üçün nə kimi imkanlar var?*

– Tədqiqat layihələrində iştirak etmək mənə ciddi akademik tədqiqatlar aparmaq, Azərbaycanda real dünya çağırışlarına tətbiq oluna bilən metodologiyaları öyrənmək təcrübəsi qazandırdı. Bu, mənə öz ixtisasım sahəsində, sözün əsl mənasında, öz peşəkarları olan, dünyada əlillik və inklüziv təhsil sahəsində sözünü demiş professorlarla ünsiyyət qurmaq və onların təcrübəsindən öyrənmək imkanları yaradır.

*– İnklüziv təhsil sizin üçün nə dərəcədə əhəmiyyətli və cəlbedicidir. Bunu necə izah edərdiniz? Bu sahəyə artan maraq nə ilə bağlıdır?*



– İnklüziv təhsildə əsas məsələ bütün tələbələrin keyfiyyətli təhsilə bərabər çıxışının təmin edilməsidir. Mənim tədqiqatım əlilliyin və inklüziv təhsilin Azərbaycan akademik mühitində necə anlaşıldığını tədqiq edib, müsbət və mənfi tərəflərini diqqətə çatdırmaq, onların aradan qaldırılması üçün təkliflər hazırlamaq, eləcə də gələcək inklüziv siniflərdə dərs keçə biləcək və inklüzivliyi effektiv şəkildə idarə etmək üçün müəllim hazırlığını təkmilləşdirməyə yönəlib.

Bu sahəyə artan maraq bərabərlik və insan hüquqları uğrunda qlobal təkandan irəli gəlir. Daha çox ölkə, o cümlədən Azərbaycan etiraf edir ki, inklüziv təhsil təkcə fərdlərə fayda vermir, həm də sosial inteqrasiyanı təşviq etməklə, ayrı-seçkiliyi azaltmaqla və daha bacarıqlı, müxtəlif işçi qüvvəsi yaratmaqla cəmiyyəti gücləndirir. Çətinliklərindən asılı olmayaraq bütün fərdləri əhatə edəcək təhsil sistemlərinin müasirləşdirilməsi zərurəti bu marağı şərtləndirir deyə düşünürəm.

*– Gənc tədqiqatçı kimi elmi konfranslarda iştirak edirsiniz. Mövzularınız və çatdırmaq istədiyiniz mesajlar barədə nə deyə bilərsiniz?*

– Seçdiyim ixtisas və dissertasiya mövzusuna uyğun konfranslarda iştirak etdiyim üçün onlar tədqiqat işimin tənqidi qiymətləndirilməsində mühüm rol oynayır. Tədqiqatçı yoldaşlarla əlaqə qurmaq və auditoriyadakı təcrübəli həmkarlardan rəy almaq mənim tədqiqat yanaşmamı təkmilləşdirməyə kömək edir. İştirakçılar tərəfindən verilən konstruktiv məsləhətlər və suallar mənim düşüncəmə və tədqiqat sahəmdə növbəti addımlara doğru istiqamətlənməyimə kömək edir. Bu məsləhətlər bir gənc tədqiqatçı kimi işimin həm keyfiyyətini, həm də təsirini artırmaqda əvəzsizdir deyə düşünürəm.

### "Karyera yönümlü təhsilə daha çox diqqət yetirməlidirlər"

*– Hazırda dünyada ali təhsil sahəsində hansı trendləri qeyd edə bilərsiniz? Sizcə, biz ali təhsildə hansı yeniliklərə hazır olmalıyıq?*

– Düşünürəm ki, ali təhsildə mövcud qlobal tendensiyalar arasında rəqəmsallaşma, onlayn öyrənmə, hibrid dərslər, rəqəmsal infrastrukturun möhkəmləndirilməsi daha vacibdir. Universitetlər praktik təcrübə vasitəsilə akademik proqramları əmək bazarının tələblərinə uyğunlaşdıraraq karyera yönümlü təhsilə daha çox diqqət yetirməlidirlər. Azərbaycan üçün rəqəmsal öyrənmə sahəsində yeniliklərə hazırlaşmaq, çevik proqram strukturlarını qəbul etmək, sənaye tərəfdaşlıqlarını gücləndirmək və qlobal təhsil mənzərəsində rəqabətədavamlı qalmaq üçün süni intellekt alətlərini inteqrasiya etmək çox vacibdir.

### İnsan öz istəyindən asılı olaraq zamanı idarə edə bilər

*– Daim öyrənmə həvəsi... Özünüzü necə motivasiya edirsiniz?*

– Daim öyrənmə həvəsi mənim üçün şəxsi inkişafın ən vacib hissəsidir. İnsanın öz bilik və bacarıqlarını daim genişləndirməsi ona yeni perspektivlər açır və yaradıcılığı artırır. İnsan öz istəyindən asılı olaraq zamanı idarə edə bilər. Hazırda Britaniyada 8 yaşlı oğlumla birlikdə oxuyuram. Məlumdur ki, uşaqla zamanı idarə etmək daha çətindir, başqa bir ölkədə heç bir yaxının və ailə üzvün olmadan yaşayırsan. Müəyyən mərhələlərdə qarşıya çıxan çətinliklər məni daha da irəli aparmağa sövq edir, çünki hər yeni problem yeni bir fürsət yaradır. Mən adətən çətinliyə düşdükdə həlli yolunu axtarmağa daha çox fokuslanıram, çətinliklər məni daha çox motivasiya edir.

### "Dövlət Proqramı vasitəsilə ən çox arzuladığım ölkədə və istədiyim universitetdə təhsil alıram"

*– Xaricdə təhsil almaq istəyən gənclərə nə kimi tövsiyələr verərdiniz?*

– İlk əvvəl tövsiyə etmək istərdim ki, heç vaxt bu arzularından imtina etməsinlər. Hər bir gənc kiçik, yaxud böyük, fərq etmir, əsas qarşısına məqsəd qoymalı və o yolda əzmlə çalışmalıdır.

Ona görə də gənclərə daha çox əzmli və iradəli olmalarını tövsiyə edirəm. Səmimi şəkildə etiraf etməliyəm ki, bugünkü uğurlarıma görə məhz bu xüsusiyyətlərimə borcluyam. Əzmkarlıq və çox çalışmaq sayəsində bu gün mən Dövlət Proqramı vasitəsilə ən çox arzuladığım ölkədə və istədiyim universitetdə təhsil alıram.

Əlavə olaraq təhsil aldıqları müddətdə daim axtarışda olmağı, tək dərslərlə deyil, ictimai işlərdə, könüllülük proqramında, eyni zamanda tələbə cəmiyyətlərində aktivlik göstərərək təcrübə qazanmalarını tövsiyə edərdim.

### Azərbaycanın təhsil sistemində, xüsusən də inklüziv təhsil sahəsində inkişaf üçün böyük potensial var

*– Gələcək hədəfləriniz barədə nə deyərdiniz?*

– Üçüncü kurs tələbəsi olaraq, hazırda kritik bir mərhələdəyəm. Bu il dissertasiya işim üçün xüsusilə vacibdir. Topladığım məlumatların təhlili ilə məşğulam və aşkar etdiyim nəticələr əsasında araşdırmalarımı davam etdirməyi planlaşdırıram. İnanıram ki, Azərbaycanın təhsil sistemində, xüsusən də inklüziv təhsil sahəsində inkişaf üçün böyük potensial var. Mənim tədqiqatım təkcə akademik töhfə verməklə bağlı deyil, həm də təhsil sistemimizi daha inklüziv etmək üçün Azərbaycanda həyata keçirilə biləcək praktiki addımları müəyyən etməkdir. Bu sahədə hələ çox görüləsi işlər var və mən bu sahənin bir hissəsi olmaqdan çox məmnunam.

Doktorluq dərəcəmi əldə etdikdən sonra əldə etdiyim bilik və təcrübəni Azərbaycan akademik ictimaiyyətindəki həmkarlarımla bölüşməyə can atıram. İnanıram ki, digər pedaqoqlar və tədqiqatçılarla əməkdaşlıq etməklə biz daha böyük, layihələr həyata keçirə bilərik. Məqsədim tələbələrə, müəllimlərə və bütövlükdə cəmiyyətə fayda verəcək inklüziv təhsil siyasəti və təcrübələrinin inkişafına mənalı töhfə verməkdir.

**Oruc MUSTAFAYEV**

# Region təhsili

## Direktorluqdan imtina edib, XANKƏNDİYƏ ibtidai sinif müəllimi kimi qayıtdı



### Günay Musayeva: "Bu məni reallığa çevirən xəyallarım, uşaqlıq arzularım idi"

**Bəzən həyat bizə gözlənilməz və bir o qədər də əlamətdar seçimlər təqdim edir.**

"Azərbaycan müəllimi"nin həmsöhbət olduğu Günay Musayeva da bu cür seçimlərdən biri ilə qarşılaşıb. Biz onunla Xankəndidə ezamiyyətdə olduğumuz zaman tanış olduq. Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbin gənc müəllimi Günay Musayeva Bərdədə uğurlu pedaqoji karyerasında direktor vəzifəsini icra edərkən, böyük arzularını həyata keçirmək üçün Böyük Qayıdış Proqramının bir parçası olmağa qərar verib:

- "Mən əslən Xankəndidənəm. İlk pedaqoji fəaliyyətimə Bərdə rayon 2 nömrəli tam orta məktəbdə müəllimlərin işə qəbulu üzrə müsabiqədən keçərək, ibtidai sinif müəllimi kimi başlamışam. Daha sonra Qarabağ Regional Təhsil İdarəsinin təşkil etdiyi direktorların işə qəbulu müsabiqəsindən uğurla keçərək Bərdə rayon Heydər Xəliloğlu adına Qullar kənd tam orta məktəbinin direktoru vəzifəsində çalışmışam", - deyə Günay müəllim sözə başladı.

O, ətrafımızdakı məktəb tənəffüsü səs-küyünə, baxmayaraq o qədər səlis və ruh yüksəkliyi ilə danışırdı ki, verdiyi qərarın düzgünlüyünə əminliyi, bundan məmnunluğu aydın hiss olunurdu:

- "Böyük Qayıdış prosesində iştirak etmək imkanım olduğunu biləndə tutduğum vəzifədən imtina edərək Nizami Gəncəvi adına Xankəndi şəhər 4 nömrəli tam orta məktəbində ibtidai sinif müəllimi kimi çalışmaq qərarına gəldim. Bu, mənim reallığa çevrilən xəyallarım, uşaqlıq arzularım, çin olan yuxularım idi. Burada canla-başla öz vəzifəmi yerinə yetirirəm. Nə yaxşı ki, biz buradayıq".

O, Xankəndi şagirdlərinin müəllimi olmağının sevincini bizimlə bölüşür:

- "Mən Xankəndi şagirdlərinin müəllimiyəm. Hər gün dərsə mütləq vətənpərvərlik mövzusu ilə başlayıram. Burada şagird kontingentinin əsas hissəsini hərbçilərin və polislərin övladları təşkil edir. Bu vətəni qoruyan insanların övladları ilə Xankəndidə, doğma torpaqlarda, üçrəngli bayrağın altında dərsə vətənpərvər ruhda başlamaq və bu hissləri şagirdlərə aşılamaq mənim müqəddəs borcumdur. Yeni vətənpərvər nəsil yetişir".

Günay Musayeva kimi gənc müəllimlərin timsalında bir daha görürük ki, təhsil yalnız bilik verməklə məhdudlaşmır, müəllimin vəzifəsi həm də gələcəyin vətənpərvər vətəndaşlarını yetişdirməkdir. Əminik ki, gələcəyimiz daha parlaqdır, çünki qəhrəman müəllimlərimiz, əsl vətənpərvər gənclərimiz var.

## Ağalının gənc müəllimləri

**Seçimlərin sırasında Zəngilanın adını görmək necə də qürurvericidir.**

**Azad olunmuş ərazilərimizdə müəllimlik fəaliyyəti göstərən gənclərin sorağı ilə sentyabrın 18-də gününü qeyd etdiyimiz Zəngilan şəhərində dayandıq. Ağalı kənd məktəbində...**

**Gənc müsahiblərim sevə-sevə həmsöhbət olmağa razılaşırlar. Hiss olunur ki, ürək sözləri çoxdur.**

**İlk olaraq, Şəmsiyyə müəllimlə həmsöhbət oluram. Əvvəlcə onu yaxından tanıyaq.**

**Şəmsiyyə Şəmsəddinova Yevlax rayonu Ərəş kəndindəndir. 2020-cı ildə Mingəçevir Dövlət Universitetini bitirib. Hazırda Ağalı kənd tam orta məktəbində ibtidai sinif müəllimidir.**



### "Şagirdlərimin sevgisini qazanmaq ən böyük uğurumdur"

*- Şəmsiyyə müəllim, ilk dəfə bu peşə ilə məşğul olacağınıza nə zaman qərar verdiniz?*

- Müəllimlik peşəsinə marağım uşaqlıqdan olub. Dərsdən sonra ən çox da həftə sonları qonşu uşaqları ilə yığışardıq. Özümə taxta parçasından lövhə hazırlamışdım, məktəbdən təbaşirlər gətirərdim, başlayırdım məktəbdə nə öyrənmişəmsə uşaqlara öyrətməyə. İlk vaxtlar tarix müəllimi olmaq istəyirdim. Uşaqlarla vaxt keçirdikcə onlarla işləmək mənə daha da zövq verirdi. Artıq qərarımı qətiləşdirdim. Mən ibtidai sinif müəllimi olacaqdım. Oldum da. Universitet, eləcə də təcrübə dövründə daha da təkmilləşmələr etdim. Təcrübə dövrüm pandemiya vaxtlarına təsadüf etdi. Hətta ilk "açıq dərs"imi keçəndən sonra karantin rejiminə keçildi. Nə yaxşı ki, müəllim olmuşam. Mingəçevirdə bir il azyaşlı, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləmişəm.

*- Zəngilanda işləmək qərarına gələndə hansı hisslər keçirdiniz?*

- 2020-ci il. Hər birimizin qəlbində Zəfərə, Qələbəyə inamın baş qaldırdığı, qığılcımların alovlandığı bir dövr oldu. Əmin idim ki, bu torpaqlara qayıdacağıq, hər şey yenidən qurulacaq. Məhz bu ərazilərdə işləmək həvəsi ilə çırpınırdım. Məqsəd və iradəmi ancaq bura yönləndirmişdim. Müəllimlərin işə qəbulu imtahanında iştirak etdim. Vakansiya seçimində Zəngilan şəhəri Ağalı kəndini gördüm. O anın sevincimi ifadə edə bilmirəm. Seçimimi etdim. Mənə zəng olundu, bildirdilər ki, Ağalı məktəbində dərs deyəcəyəm. Bu xəbəri ilk atamla bölüşdüm. Vaxt gəldi, vədə yetişdi Zəngilana getməyə. Bizim üçün xüsusi avtobus ayrılmışdı. Ali təhsil aldığım dövrdə də evdən uzaq olmamışdım. İndi isə, məkan olaraq uzağa gedirdim. Doluxsunmuş gözlərlə ailəmdən ayrılıb, avtobusa əyləşdim. İşğaldan azad olunmuş ərazilərə yaxınlaşdıqca fərqli hisslər yaşayırdım. Yollar sanki qollarını açıb bizi qoynuna alırdı. Bu dəfə ağlayırdım, sevinc göz yaşlarım idi bu yaşlar.

*- Azad olunmuş Zəngilanda, Ağalıda müəllimlik fəaliyyətini davam etdirmək necə bir duyğudur?*

- Yeni bir mühit, yeni insanlar, demək olar ki, hər şey yeni idi mənim üçün. Qalacağımız məkanla tanış oldum. Məktəbə getdik. Addım atdıqca, gəzdikcə bura ilk əsgərlərimizin gəldiyini, onların canı, qanı bahasına alınan torpaqlarımızın nə qədər müqəddəs olduğunu bir daha anlayırsan. Nəhayət, ilk dərs günü gəldi. Böyük açılış mərasimi oldu. Tədbirlər, görüşlər keçirildi, bu da hər sahədə təcrübə qazanmağıma böyük dəstək oldu.

*- Şagirdlərinizə dərsi, tədris etdiyiniz fənni necə sevdirirsiniz, onları hansı üsullarla motivasiya edirsiniz?*



- Şagirdlərə sevgi, qayğı, nəvazişlə yaxınlaşmaq lazımdır. Uşaqlara niyə burada olmağın mənasını, tariximizi hər zaman izah edirəm. Düşünürəm ki, onların sevgisini qazanmaq ən böyük uğurumdur. Bu gün məktəbimiz ən müasir avadanlıqlarla təchiz edilib. Kollektiv olaraq dərslərin effektiv, akademik bazamızın güclü olması üçün var gücümüzlə çalışırıq.

Səmimi müsahibəsi üçün təşəkkür edib Şəmsiyyə müəllimdən ayrılırıq.

### "Uşaqların maraq və bacarıqlarını görə bilməliyik"

"Əslində, arzum tibb ixtisası, həkimlik idi, ancaq müəllimlik kimi şərəfli bir peşəyə yiyələndiyim üçün peşman deyiləm".

Növbəti gənc müsahibim Elçin müəllim Gədəbəydə doğulub. Əslən Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonundandır. Ağalıya uzanan müəllimlik yolu isə paytaxt Bakıdan başlayır. Artıq 3 ildir burada müəllimlik fəaliyyəti göstərən müsahibim Ağalıda dərs deməsinin necə böyük bir qürur olduğunu dilə gətirir.

*- Sizcə, bir müəllim şagirdlərinə dərslərini necə sevdirməlidir?*

- Məncə, bir müəllim şagirdlərə dərsləri sevdirmək, onlarda maraq oyatmaq istəyirsə, öncə onlarla şəxsiyyət kimi davranmalı, onların psixologiyasını dərindən analiz etməli və onlarla olduqca həssas rəftar etməlidir. Biz şagirdlərlə və onların valideynləri ilə mütəmadi söhbətlər aparırıq, onlar üçün təhsilin önəmini, xüsusən də indiki dövrdə vacibliyini bildiririk. Düşünürəm ki, bunu etmək biz müəllimlərin vəzifə borcudur.

*- Bəzən valideynlər övladlarının ali təhsil almasına o qədər maraqlı olurlar ki, onların hər hansı istedadını görmək istəmirlər. Qarşılaşmısınız belə hallarla?*

- Əlbəttə. Elə vaxtlar olur ki, valideynlər övladlarını öz istədikləri səmtə, arzularında olduqları peşəyə yönəltmək istəyirlər. Belə olan halda valideynlər uşaqlarında olan maraq və istəkləri, onlarda olan fitri istedadı görməkdən yayınırlar. Biz müəllimlər, eləcə də valideynlər uşaqların maraq və bacarıqlarını görə bilməli və onlara dəyər verməliyik.

*- Bəzən dərs danışmaqdan, lövhəyə çıxmaqdan çəkinən uşaqlar olur. Onların dərslərini mənimsəməsi, rahat şəkildə danışması üçün necə bir üsul seçirsiniz?*

- Dərs zamanı bəzən özünə qapanan, utancaq, antisosial şagirdlərlə qarşılaşdığımız vaxtlar da olur. Bu zaman həmin şagirdlərlə də sosiallaşa bilmə, ünsiyyət qurma üsulları olur. Onlarla daha həssas davranmalı, rahat şəkildə özlərini ifadə etmələrinə dəstək olmalıyıq. Məsələn, utancaq bir şagird lövhəyə çıxmağa çəkinirsə bu zaman onunla dərsi sorğu-sual etməli, mövzu müzakirəsinə dəvət etməlisən. Zamanla həmin şagirdlər müəyyən dərəcədə komplekslərindən azad olur və şagird yoldaşları və müəllimindən çəkinməməyə başlayır. Bizim işimiz şagirdləri sevərək, təhsilin onların gələcək həyatları üçün nə qədər əhəmiyyətli və mühüm olduğunu aşılamaqdır.

*- Vətənimiz artıq bütövdür, suverenliyimizi bərpa etmişik. Və bunlarla yanaşı, gündən-günə gözəlləşən azad olunmuş torpaqlarımızda təhsil müəssisələri yenidən qurulur...*

- Gündən-günə gözəlləşən vətənimin demək olar ki, hər yerində təhsil müəssisələri fəaliyyət göstərir, işğaldan azad olunmuş torpaqlarımızda quruculuq və bərpa işləri sürətlə davam edir, bu torpaqların həsrətində olan vətəndaşlarımız artıq öz doğma el-obalarına böyük sevinc hissi ilə köç edirlər.

Övladlarını məktəbə göndərir, işlə təmin olunurlar. Bu, bizim üçün çox böyük qürurverici və gözəl hissdir.

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi**
**Zəngəzur üzrə regional təmsilçi**

**Məlum olduğu kimi, oktyabrın 15-dən Elm və Təhsil Nazirliyi, Təhsil İnstitutu və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "BilBacar" müsabiqəsinə start verilib.**

**"Azərbaycan müəllimi" müsabiqə barədə tez-tez verilən sualların cavablarını təqdim edir:**



# "BilBacar" müsabiqəsi nədir və kimlər iştirak edə bilərlər?

## Ən çox verilən sualların cavabları

### "BilBacar"a kimlər qoşula bilərlər?

"BilBacar" müsabiqəsinə respublikanın bütün ümumtəhsil müəssisələrinin VIII, IX və X sinif şagirdləri qoşula bilər.

### "Bilbacar" müsabiqəsinin məqsədi nədir?

VIII, IX və X siniflərdə təhsil alan şagirdlərin məktəbdə qazandıqları bilik və bacarıqları həyatda istifadə etmək qabiliyyətini inkişaf etdirmək və şagirdləri bu bilik və bacarıqları real həyatda tətbiq etməyə sövq etməkdir.

### Qeydiyyatdan necə keçmək olar?

Qeydiyyatdan iki üsulla keçmək olar:
- Şagird *bilbacar.edu.az* saytında "Qeydiyyatdan keçin" bölməsinə daxil olaraq qeydiyyatdan keçir;
- Məktəbin "BilBacar" koordinatoru şagirdi qeydiyyatdan keçirir.

### Müsabiqə nə vaxta qədər davam edəcək?

Müsabiqə oktyabr-iyun ayları ərzində davam edəcək. Oktyabr-may ayları üzrə 8 seansdan ibarət onlayn mərhələ, iyun ayında isə əyani formada final mərhələsi keçiriləcək.

### Müsabiqəyə necə hazırlaşmaq olar?

Saytda qeydiyyatdan keçdikdən sonra "Hazırlıq" bölməsinə daxil olaraq "Yarış"da qarşınıza çıxacaq suallara bənzər suallarla tanış ola, eyni zamanda onları həll edərək bal toplaya bilərsiniz.

### Müsabiqədə qalib gəldiyini necə bilmək olar?

Hər ay "Yarış" bitdikdən sonra öz nəticənizi respublika üzrə, regional təhsil idarəsi üzrə, məktəb üzrə və eyni zamanda liqalar üzrə görə bilərsiniz.

### Liqalar nədir?

İştirakçı müsabiqədə əldə etdiyi nəticəsinə uyğun olaraq 7 liqadan (səviyyədən) birində qərarlaşır:

| | |
|---|---|
| *Platinium* | *(640 - 660 arası bal toplayan şagirdlər)* |
| *Çempion* | *(600 - 639 arası bal toplayan şagirdlər)* |
| *Kristal* | *(550 - 559 arası bal toplayan şagirdlər)* |
| *Qızıl* | *(500 - 549 arası bal toplayan şagirdlər)* |
| *Gümüş* | *(450 - 499 arası bal toplayan şagirdlər)* |
| *Bürünc* | *(400- 449 arası bal toplayan şagirdlər)* |
| *Fəal iştirakçı* | *(100 - 399 arası bal toplayan şagirdlər)* |

### Hansı fənlərdən sualları cavablandırmaq lazımdır?

Bütün müsabiqə boyu üç fənn üzrə sualları cavablandıracaqsınız:
- riyaziyyat: 20 sual
- oxu: 20 sual
- təbiət elmləri: 20 sual

### Məktəb "BilBacar"da iştirak etmirsə, fərdi şəkildə iştirak etmək olar?

Məktəbinizə müraciət edərək iştirak etmək istədiyinizi bildirin. Məktəbiniz müvafiq regional təhsil idarəsinə müraciət etməklə və ya *bilbacar.edu.az* saytında "İştirak üçün müraciət et" düyməsini klikləyərək müsabiqəyə qoşula bilər.

### "Hazırlıq" və "Yarış" nədir?

"Hazırlıq" iştirakçıların "Yarış"a hazırlığı üçün nəzərdə tutulub. Şagirdlər bu bölməyə istənilən məkandan və istənilən vaxt (kompüter, planşet və ya telefon vasitəsilə) daxil ola bilərlər. "Hazırlıq" bölməsində hər doğru cavab 1 balla qiymətləndirilir. "Hazırlıq" bölməsindəki tapşırıqlar 1 ay müddətində açıq olacaq. Şagirdlər bu bölmədəki tapşırıqları bir dəfəyə tamamlamağa məcbur deyil, hissə-hissə də cavablandıra bilərlər. Şagirdlər "Hazırlıq" bölməsindəki bütün suallara cavab verib, təsdiq etdikdən sonra bu mərhələ yekunlaşır və onlar topladıqları balı görə bilirlər. Yanlış cavablandırılan suallara görə bal çıxılmır. Bu mərhələ üzrə suallar hər ay yenilənir.Bu bölmədə qazanılmış ballar yarış bölməsində qazanılmış ballara əlavə olunur.

"Yarış" bölməsi ayda bir dəfə aktivləşməklə 8 seansdan (imtahandan) ibarətdir. Yarış bölməsinin hər bir seansı məktəbdə "BilBacar" koordinatorunun müşayiəti ilə keçirilir. Hər seansın müddəti 2 saatdır. Həm "Hazırlıq", həm də "Yarış" bölməsində 60 tapşırıq mövcuddur və bu tapşırıqları həll etmək üçün şagirdlərə 2 saat vaxt verilir.

### Müsabiqə nə zaman bitəcək?

2024-cü ilin oktyabr ayından etibarən başlayan və ümumilikdə 9 ay davam edən müsabiqədə şagirdlər riyaziyyat, oxu və təbiət elmləri üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər. Müsabiqə 2 mərhələdən ibarətdir:

I mərhələ virtual platforma üzərindən 2024-cü ilin oktyabr - 2025-ci ilin may ayları ərzində davam edəcək.

II mərhələ 2025-ci ilin iyun ayında əyani formatda keçiriləcək.

### Sualları yalnız kompüter vasitəsilə cavablandırmaq mümkündür?

"Hazırlıq" bölməsinin suallarını kompüter, planşet və ya telefondan istifadə etməklə cavablandıra bilərsiniz. Lakin "Yarış" bölməsindəki sualları yalnız kompüter vasitəsilə və məktəb koordinatorunun nəzarəti altında ayda bir dəfə cavablandırmaq olar.

### "BilBacar" nəticəsini necə paylaşmaq olar?

Şagirdlər şəxsi kabinetlərinə daxil olaraq öz nəticələrini izləyə və sosial şəbəkələr vasitəsilə paylaşa bilərlər.

### Məktəbi müsabiqə üçün qeydiyyatdan necə keçirmək olar?

Məktəblər 2 üsulla qeydiyyatdan keçə bilərlər:

- "BilBacar"da iştirak etmək istəyən məktəblər tabe olduqları quruma (Regional Təhsil İdarəsi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və s.) müraciət edir, həmin qurumlar isə Azərbaycan Respublikasının Təhsil İnstitutuna bu barədə məlumat göndərir. ARTİ müvafiq məktəblər üzrə hesablar yaradır.
- Sayt vasitəsilə "Məktəblər üçün müraciət" bölməsini doldurmaqla.

### Müsabiqədə iştirak ödənişlidirmi?

Xeyr, müsabiqədə iştirak tamamilə ödənişsizdir.

### Müsabiqədə keçid balı varmı? Növbəti mərhələyə keçib keçmədiyini necə bilmək olar?

Şagirdlər 2025-ci ilin iyun ayına qədər hər ay "Hazırlıq" və "Yarış"da iştirak edəcəklər. Əgər şagirdin məktəbi "BilBacar"da iştirak etmirsə, şagird sadəcə "Hazırlıq" suallarını cavablaya biləcək, əgər məktəb "BilBacar"da iştirak edirsə, şagird "Yarış"da da iştirak edəcək. Nə "Hazırlıq"da, nə də "Yarış"da keçid balı yoxdur, şagird hər ikisində də hər ay iştirak edə bilər. Gələn ilin iyun ayına qədər hər sinif (VIII, IX və X siniflər) üzrə aylar ərzində ümumi balı ən yaxşı olan 150 şagird final mərhələsində iştirak edəcək.

### Koordinatorlar şagirdləri qeydiyyatdan keçirmək üçün hansı linkdən istifadə etməlidirlər?

Koordinatorlar şagirdlərin qeydiyyatı üçün *https://bilbacar.edu.az/admin/login* linkindən istifadə etməlidirlər.

### Qeydiyyatdan keçərkən yazdığım nömrəni və ya əldə etdiyim şifrəni yeniləyə bilərəm?

Şagird "Şifrəni unutdum" bölməsinə daxil olaraq nömrəsini və utis şifrəsini daxil edir və yeni şifrə təyin edir.

### "BilBacar" müsabiqəsində özəl müəssisələrin şagirdləri də iştirak edə bilər?

Bəli, müsabiqədə özəl məktəblərin şagirdləri də iştirak edə bilər. Saytda "Məktəblər üçün müraciət" bölməsindən məktəb sorğu göndərərək müsabiqədə iştirak üçün qeydiyyatdan keçə bilər.

### "BilBacar"da rus bölməsində təhsil alan şagirdlər iştirak edə bilərmi?

Bəli, müsabiqə iki dildə keçirilir: Azərbaycan və rus. Hər iki bölmədə təhsil alan şagirdlər müsabiqədə iştirak edə bilərlər.

---

# "Ümumi təhsil müəssisələrində şagird təhlükəsizliyi"

## mövzusunda maarifləndirici tədbirlər



**Paytaxt məktəblərində şagirdlərin təhlükəsizliyinin təmin edilməsi və sağlam mənəvi-psixoloji mühitin formalaşması məqsədilə maarifləndirici tədbirlər keçirilir.**

Tədbirlər Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin "Ümumi təhsil müəssisələrində şagird təhlükəsizliyi" mövzusunda təlimatına əsasən təşkil olunur. Belə ki, təhlükəsizlik tədbirləri ilə bağlı şagirdlərin, valideynlərin maarifləndirilməsi və onların məsuliyyətinin daha da artırılması üçün "Təhlükəsizlik günü" adlı tədbirlər, valideynlərin iştirakı ilə "Şagird təhlükəsizliyi" mövzusunda görüşlər davam edir.

Tədbirlərdə ümumi təhsil müəssisələrində əlverişli təlim və inkişaf mühitinin yaradılması, şagirdlərin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, tərbiyə işinin, məktəb-ailə münasibətlərinin düzgün tənzimlənməsi, xüsusi hallarla bağlı davranış modellərinin formalaşdırılması sahəsində reallaşdırılan kompleks tədbirlər, həmçinin təlim-tərbiyə prosesinin keyfiyyəti, şagirdlərin şəxsiyyət kimi formalaşdırılması, məktəblərdə psixoloji xidmət və sağlam psixoloji mühitin təkmilləşdirilməsindəki rolu barədə geniş məlumatlar verilir.

Görüşlərdə "Ümumi təhsil müəssisələrində bullinqlə mübarizəyə dair qaydalar" və "Ümumi təhsil müəssisələrində şagird davranış qaydaları" da şagird və valideynlərin bir daha nəzərinə çatdırılır.



Bundan başqa, məktəblərdə daha təhlükəsiz mühit yaratmaq, sağlam mənəvi-psixoloji mühitin formalaşma işinə töhfə vermək məqsədilə vaxtaşırı monitorinqlər aparılır, məktəbə giriş və çıxışlara nəzarət gücləndirilir, məktəbə gətirilməsi qadağan olunan əşya və ləvazimatlar haqqında şagirdlər maarifləndirilir.

# GƏLƏCƏYİMİZİ SEÇMƏK:

## İqlim dəyişikliyi üçün təhsil və onun təsirləri



## Dünya Bankının hesabatı nələri vəd edir?

**İqlim dəyişikliyi bu gün bəşəriyyətin qarşılaşdığı ən böyük qlobal problemlərdən biridir. Bu problemlə bağlı 2024-cü ildə Dünya Bankı tərəfindən “Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil” adlı hesabat nəşr olunub.**

**Təhsil İnstitutunun “Beynəlxalq Təhsil İcmalı” bülleteninin sentyabr nömrəsində sözügedən hesabatla bağlı təhlil yer alıb.**

Hesabatda əsas diqqət təhsilə yönəlib. Belə ki, hesabatda təhsilin iqlim dəyişikliyi ilə mübarizədə oynadığı mühüm rol və onun vasitəsilə əldə edilə biləcək nəticələr ətraflı şərh edilib. Həmçinin qeyd olunur ki, təhsil iqlimə qarşı tədbirlərin təşviqində güclü vasitə ola bilər. Eyni zamanda araşdırmada bu sahədə mövcud olan boşluqlar nəzərdən keçirilərək təhsilin yalnız iqlim məlumatlılığını artırmaqla kifayətlənmədiyini, həm də yaşıl bacarıqların inkişafına və cəmiyyətlərdə davranışların dəyişdirilməsinə kömək edə biləcəyi əsaslandırılır. Bütün bunlara baxmayaraq, hesabatın mühüm narahatlıq doğuran məsələlərindən biri də təhsilin qlobal iqlim dəyişməsi fonunda zəif maliyyələşdirilməsidir.

### Təhsilin iqlim tədbirləri üçün katalizator rolu

Hesabatda təhsilin qlobal miqyasda iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın və tədbirlərin genişləndirilməsində güclü vasitə olduğu vurğulanır. Qeyd olunur ki, təhsilə düzgün və məqsədyönlü investisiya edilməklə, iqlim tədbirlərinin miqyasını genişləndirmək mümkündür. Lakin bütün bu cəhdlərə baxmayaraq, 2021-ci ildə iqlim maliyyəsinin yalnız 1.5%-i təhsilə ayrılmışdır ki, bu da narahatlıq doğurur. Təhsilin həm düşüncələri, yanaşmaları formalaşdırmaq, həm davranışları dəyişmək, həm də innovasiyaları stimullaşdırmaq qabiliyyəti yüksəkdir. Lakin aşağı səviyyəli maliyyələşdirmə ilə təhsilin potensialı tam reallaşdırıla bilməz. Həmçinin, hesabat əlavə bir il təhsilin iqlim məlumatlılığını 8.6% artırdığına diqqət çəkir.

Bundan əlavə iqlim tədbirlərinə yönəlmiş təhsil proqramları da mühüm əhəmiyyət kəsb edir. Belə ki, təhsil proqramları vasitəsilə şagirdlərə iqlim haqqında məlumatların çatdırılması, cəmiyyətdə ekoloji davranışların təşviq edilməsi kimi addımların vacibliyi vurğulanır. Avropada aparılan araşdırmalar göstərir ki, təhsildə əlavə bir il iqlim dostu davranışlarını 5.8% artıb. Bu da təhsilin cəmiyyətin ekoloji şüurunun formalaşmasında əvəz olunmaz rol oynadığını bir daha təsdiqləyir.

### İqlim dəyişikliklərinin təhsil sistemlərinə təsiri

İqlim dəyişikliklərinin təhsil sistemlərinə mənfi təsirləri xüsusilə aşağı gəlirli ölkələrdə daha qabarıq şəkildə müşahidə olunur. Hesabatda vurğulanır ki, iqlimlə əlaqəli hadisələr məktəblərin fəaliyyətində ciddi pozulmalara səbəb olur. Bu da təhsilalanların öyrənmə prosesinə mənfi təsir göstərir. Eyni zamanda hesabatda aşağı gəlirli ölkələrdə hər il orta hesabla 18 gün dərs iqlimlə bağlı pozulmalar nəticəsində itirilir, halbuki yüksək gəlirli ölkələrdə bu rəqəm cəmi 2.4 gündür.

Bundan əlavə hesabatda Braziliya nümunəsi də əks olunur. Qeyd olunur ki, burada aşağı gəlirli ailələrdən olan şagirdlər iqlim səbəbindən öyrənmə vaxtlarının orta hesabla 0.5 ilini itirirlər. Məhz itirilən vaxtlar təhsil nailiyyətlərinə ciddi təsir göstərir ki, bu da gələcək əmək bazarına hazırlığın zəifləməsi kimi nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən də hesabatda itkilərin qarşısını almaq üçün təhsil sistemlərinin bu cür təsirlərə aşağı maliyyə ilə uyğunlaşması ilə bağlı tədbirlər tövsiyə olunur.

Bu tədbirlər arasında məktəblərdə temperaturun tənzimlənməsi, infrastrukturun dayanıqlılığı və məktəblərin bağlanması hallarında məsafədən təhsilin təşkil edilməsi kimi təkliflər yer alır. Həmçinin bu uyğunlaşma tədbirləri hər bir təhsilalan üçün 18.51 ABŞ dollarından 101.97 ABŞ dollarına qədər maliyyə tələb etməsi hesabatda qeyd olunur.

### Təhsilin davranış dəyişikliklərinə təsiri

Təhsilin iqlim dostu davranışlarını necə təşviq etdiyi də hesabatda mühüm mövzulardan biridir. Vurğulanır ki, təhsil yalnız iqlim haqqında məlumatlılığı artırmaqla qalmır, həm də iqlimlə əlaqədar fəaliyyətləri təşviq edir. Əlavə bir ilin təhsilin iqlim dostu davranışlarının 5.8% artırması Avropada aparılan tədqiqatlarda yer alır. Bu da təhsilin ekoloji davranışları formalaşdırmaqda əsas vasitələrdən biri olduğunu sübut edir.




Bununla yanaşı Hindistanda aparılan təsadüfi nəzarət sınaqları nəticəsində uşaqlara iqlim dəyişikliyi ilə bağlı təhsil verildikdə, onların valideynlərinin iqlim dostu davranışlarında 13% artım müşahidə edilmişdir. Bu da uşaqların cəmiyyətdə və ailədə dəyişiklik agentləri kimi çıxış etmə potensialını vurğulayır. Eyni zamanda təhsilin yalnız fərdi səviyyədə deyil, həm də icmalar və siyasi səviyyədə iqlim siyasətlərini formalaşdıra biləcəyi də hesabatda qeyd olunur. Məsələn, Avropada hər əlavə il təhsil yaşıl siyasətləri dəstəkləyən seçkilərdə 3.6% artıma səbəb olur ki, bu da sistemli, məqsədyönlü iqlim siyasəti dəyişikliklərinə yol açır.

### Yalan məlumatlar və məlumat boşluqları

Hesabatda qeyd olunan başqa bir vacib məsələ isə yalan məlumatların yayılmasıdır. Bu vəziyyət, xüsusilə aşağı və orta gəlirli ölkələrdə iqlim tədbirlərinin qarşısını alan əsas faktorlardan biridir. Məsələn, Banqladeşdə müəllimlərin 47%-i və Uqandada 41%-i iqlim dəyişikliyinin media tərəfindən şişirdildiyini düşünür. Bu da həmin ölkələrdə iqlim məlumatlılığında ciddi boşluqların olduğunu göstərir.

Bundan əlavə, aşağı və orta gəlirli ölkələrdə insanların yalnız 65%-i iqlim dəyişikliyindən xəbərdardır. Bu da onu göstərir ki, bu ölkələrdə insanların iqlim tədbirlərinə dair məlumatlılığında ciddi çatışmazlıqlar var. Məlumat boşluğu isə daha çox gənclər arasında nəzərə çarpır. Məsələn, Banqladeşdə təhsilalanların 88%-i iqlim dəyişikliyinə qarşı tədbirlərdə iştirak etmək istəsələr də, yalnız 32%-i iqlimlə bağlı verilən sualları düzgün cavablandıra bilmişdir. Məhz bu boşluğun aradan qaldırılması təhsilin iqlim tədbirlərində rolunu daha da gücləndirə bilər.

### Yaşıl bacarıqlar və əmək bazarı

Yaşıl iqtisadiyyata keçid hesabatın əhəmiyyətli hissələrindən biridir. Odur ki, hesabatda yaşıl bacarıqların inkişafı ilə bağlı məsələlərə geniş yer ayrılmışdır. Belə ki, qlobal miqyasda yaşıl keçidlərin 2030-cu ilə qədər 100 milyon yeni iş imkanlarının yaranmasına səbəb olacağı, eyni zamanda 78 milyon mövcud iş yerinin ixtisar olunacağı proqnozlaşdırılır. Bu isə ciddi təlim və bacarıq artırılmasına ehtiyac olduğunu göstərir.

Bununla belə aşağı və orta gəlirli ölkələrdə yaşıl bacarıqların yalnız ali təhsil və ya STEM sahələri ilə məhdudlaşdırıldığına dair yanlış təsəvvürlər mövcuddur. Halbuki yaşıl bacarıqlar texniki, sosial, emosional və sektorlararası bacarıqları əhatə edir. Həmçinin, yalnız STEM sahələrində deyil, bir çox sənaye sahələrində mövcuddur.

### Təhsil sistemlərinin uyğunlaşma çətinlikləri

Hesabat təhsilin iqlim dəyişikliyinin mənfi təsirlərindən qorunması üçün dərhal tədbir görməyi tövsiyə edir. Təkliflər arasında infrastrukturun dayanıqlılığını gücləndirmək, məsafədən təhsil imkanlarını genişləndirmək, müəllimlərin iqlim mövzularında bilik və bacarıqlarını artırmaq yer alır. Hesabatda qeyd olunur ki, 2022 ilə 2024-cü illər arasında 81 ölkədə 404 milyon tələbə iqlimlə bağlı məktəb bağlanmalarından təsirlənib. Bu isə geniş miqyaslı pozuntuların qarşısını almaq üçün təcili tədbirlərin görülməsini tələb edir.

### Nəticə

“Gələcəyimizi seçmək: İqlim dəyişikliyi üçün təhsil” hesabatı iqlim dəyişikliyi ilə mübarizədə təhsilin mühüm rolunu vurğulayır. Eyni zamanda, hesabat sübutlar və statistikalara əsaslanan arqumentlər vasitəsilə, hökumətləri təcili olaraq təhsilin iqlim strategiyalarına inteqrasiya edilməsinə çağırır. Bu yolla milyonlarla gəncin potensialı açılacaq.



# Qubanın kənd məktəbindən Sinqapura uzanan müəllim yolu



## Səbinə Məmmədova:

## "Qazandığım təcrübələri Azərbaycanda tətbiq edib təhsilimizin inkişafına töhfə verə bilərəm"

**Onunla ilk tanışlığım sosial şəbəkələr üzərindən olub. Təhsillə bağlı fikirlərini bölüşən, müəllimlik fəaliyyətinin müxtəlif məqamlarını, eləcə də beynəlxalq səviyyədə əldə etdiyi təcrübələrini paylaşan azərbaycanlı müəllim neçə müddət idi ki, diqqətimi cəlb etmişdi. Beynəlxalq layihələrdə, proqramlarda iştirak edən, xarici ölkələrin təhsil mütəxəssislərinin də etimad göstərdiyi Səbinə Məmmədova Sinqapurda yaşayır. Bu dəfə oxucularımızı ölkəmizin hüdudlarından kənarda uğurlu fəaliyyəti ilə seçilən azərbaycanlı müəllimimizlə tanış etmək qərarına gəldim.**

### "Düşünməzdim ki, bir vaxt gələcək və mənə yaxşı tanış olan bu qəzetlə yollarımız yenidən kəsişəcək"

*- Səbinə müəllim, bir qədər özünüz haqqında məlumat verin.*

- Orta təhsilimi Bakı və Gəncə şəhərlərində almışam. 2016-cı ildə Bakı Dövlət Universitetini "Biologiya müəllimliyi" ixtisası üzrə bitirmişəm. Elə həmin il ali təhsilimin magistratura pilləsini Azərbaycan Dövlət Pedaqoji Universitetində "Biologiya fənninin tədrisi metodikası və metodologiyası" ixtisası üzrə davam etdirmişəm.

Sizinlə söhbətləşdikcə tələbəlik illərimi yenidən xatırlayıram. Düz 6 il əvvəl magistraturada təhsil aldığım müddətdə diplom müdafiəsi üçün araşdırma apararkən Azərbaycan Milli Kitabxanasına gedib, axşamacan orada "Azərbaycan müəllimi" qəzetinin müxtəlif nömrələrində dissertasiya mövzum ilə əlaqədar əlavə məlumatlar, tədqiqat xarakterli yazıları axtardığım vaxtları xatırlayıram. Düşünməzdim ki, bir vaxt gələcək və mənə yaxşı tanış olan bu qəzetlə yollarımız yenidən kəsişəcək.

*- İlk dəfə müəllimliyə harada başladınız?*

- İlk dəfə biologiya müəllimi kimi Quba rayonu Nurəddin Rzayev adına Aspərəsti kənd tam orta məktəbində sinfə daxil olmuşam. Bir müddət həmin məktəbdə işlədikdən sonra Bakıya qayıdaraq müəllimlik fəaliyyətimi Avropa Azərbaycan Məktəbində davam etdirdim. 2 il həmin təhsil ocağında çalışdım. Növbəti fəaliyyət göstərdiyim məktəb 132-134 nömrəli Təhsil Kompleksi olub. Orada Beynəlxalq Bakalavriat Proqramı bölməsində müəllim kimi fəaliyyət göstərmişəm.

### Xarici ölkədə ilk iş təcrübəsi...

*- Azərbaycandakı müəllimlik fəaliyyətinizi sonradan xaricdə davam etdirdiniz. Bununla bağlı nə demək istərdiniz?*

- Öncə onu qeyd edim ki, Azərbaycandakı fəaliyyətimdən sonra Myanmanın Yanqon şəhərində, mərkəzi İngiltərədə olan "Kings Education" Təhsil Şirkətinin "Kings Yangon-International School" məktəbində biologiya və elm fənlərini tədris etməyə başladım. Buradakı fəaliyyətim xarici ölkədə ilk iş təcrübəm olduğuna görə mənim üçün yaddaqalan dövrlərdən sayılır. Hazırda isə Sinqapurda "Global Schools Group" Təhsil Şirkətinin daxilində fəaliyyət göstərən "One World International School Nanyang Campus"da elm müəllimi işləyirəm. Qubada çalışmağa başladığım müddətdən 6 il sonra Sinqapurda fəaliyyətə başlamaq, milli kurikulumdan beynəlxalq kurikuluma keçid etmək, bu müddətdə maksimum dərəcədə özümü inkişaf etdirməyə çalışmaq təbii ki, mənə asan olmayıb. Bunun üçün də öyrənməyin, təhsilin, zəhmətkeşliyin uğurlarımın, nailiyyətlərimin əsas açarı olduğunun fərqindəyəm.

Bilirsiniz, Sinqapurun təhsil sistemində hansı metodlardan istifadə edilməsi mənim üçün çox maraqlı idi. Ölkənin təhsil sahəsindəki nailiyyətləri haqqında məlumatlı idim. Buna görə də Sinqapurdakı özəl məktəbdən iş təklifi gəldikdə, qəbul etdim.

Fəaliyyət göstərdiyim bütün məktəblərdəki şagirdlər mənim üçün doğma, əziz və dəyərlidir. Hələ də işlədiyim məktəblərdəki vaxtilə dərs dediyim şagirdlərimlə ünsiyyətim davam edir. Onların təhsil almaq, öyrənmək üçün çəkdikləri zəhmətin bir hissəsi olmaq, ali məktəblərə daxil olmalarını, uğurlu karyera qurmalarını görmək qürurvericidir.



### Beynəlxalq proqramda mentor kimi

*- Siz Qlobal Məktəblər Proqramında mentor kimi çalışmaq hüququ əldə etmisiniz. Proqramın əsas məqsəd və mahiyyəti nədir? Və necə oldu ki, mentor seçildiniz?*

- Bu il UNESCO-nun Dayanıqlı İnkişaf üçün Təhsil üzrə Qlobal Fəaliyyət Proqramına (ESD) dəstək olaraq Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Həlləri Şəbəkəsinin təşəbbüsü olan Qlobal Məktəblər Proqramı üçün mentor seçildim. Qlobal Məktəblər Proqramında (Global Schools Program) artıq 4 ildir ki, könüllü olaraq ildə bir dəfə təşkil edilən müəllim kohortlarında fəaliyyət göstərirəm. Proqram müəllim və mentorlar üçün bir sıra dəyərli resurslar təqdim edir və dünyanın müxtəlif ölkələrindən olan təhsil işçilərinin əməkdaşlığı üçün şərait yaradır.

Qlobal Məktəblər Proqramı dayanıqlı inkişaf məqsədlərini təhsil proqramına əlavə etmək, bu mövzuya diqqət çəkməklə bərabər, təhsil sistemlərini dəstəkləmək üçün alətlər, resurslar və təşəbbüslər hazırlayır. Proqramın məqsədi isə hər bir ibtidai və orta məktəb şagirdinin XXI əsrin ən böyük çağırışlarını həll etmək və hər kəsin davamlı, firavan gələcəyə töhfə vermək üçün zəruri olan bilik, dəyərlər və bacarıqlarla təmin edilməsidir. Qlobal Məktəblər Proqramı daxilində bu 4 il ərzində müxtəlif ölkələrdən - Azərbaycan, Türkiyə, Malayziya, İndoneziya, Bruney, Çin, Vyetnam, Honk-Konq və Cənubi Koreyadan mentilərim olub.

Proqram daxilində iştirak etdiyim ən böyük genişmaştablı tədbirlərdən biri də Türkiyədəki mentim tərəfindən 2 beynəlxalq məktəbin müəllimləri ilə görüşüm idi. Zoom vasitəsilə Türkiyədə Eraslan Okulu və FMV Işık Okulları müəllimlərinə Qlobal Məktəblər Proqramı (QMP) haqqında məlumat verdim. Mən Global Schools Advocates və Mentorluq Proqramları, Dayanıqlı İnkişaf Məqsədləri (DİM), müəllimlərin Qlobal Məktəblər Proqramına necə müraciət edə biləcəkləri, bu proqramda olmağın əhəmiyyəti, DİM-lər üzrə fəaliyyət göstərməyim və proqram çərçivəsində təcrübəm haqqında fikirlərimi bölüşdüm.

Ümid edirəm ki, Azərbaycan müəllimləri də Qlobal Məktəblər Proqramında iştirak etməkdə maraqlı olacaqlar, çünki bu beynəlxalq səviyyədə tanınan nüfuzlu proqramlardan biri hesab olunur. Düşünürəm ki, Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycanda təhsil prosesinə daxil edilməsi ilə əlaqədar faydalı ola bilər.

*- Sinqapurda özəl məktəbdə çalışırsınız. Orada təlim-tədris prosesi necə aparılır, əsas nələrə diqqət verilir?*

- Mənim çalışdığım məktəb Sinqapurda 3 ən tanınmış təhsil müəssisəsindən biridir. Məktəbin Sinqapurda 1000-dən çox şagirdi olan 2 kampusu var. Məktəbin daxil olduğu "Global Schools Group" Təhsil Şirkəti dünyanın müxtəlif ölkələrində məktəbləri olan bir qurumdur. Təhsil müəssisəmiz Modified Cambridge Curriculum, IGCSE (International General Certificate of Secondary Education) və IB (International Baccalaureate) təhsil proqramlarına malikdir. Əsas tələb edilən şagirdlərin akademik fəaliyyətindən çox yararlı şəxsiyyət kimi inkişafına dəstək olmaqdır. Adətən, modelləşdirmə, təcrübələr, rəqəmsal alətlərdən istifadə edərək, dərslərimi hazırlayıram. Müdiriyyət müəllimlərin fəaliyyətini dəstəkləyən, resurslarla təmin edən mövqeyə malikdir, bunun üçün də şagirdlərdən, valideynlərdən müsbət rəylər eşidirik.

### Şagirdlər vacib fənlərdən bir neçəsini seçərək sırf onları öyrənməyə fokuslanırlar

*- Sinqapur təhsilinin özəllikləri nədir?*

- Sinqapurda təhsilə yanaşma fərqlidir, dövlət təhsilə ciddi investisiyalar edir. Dövlət məktəblərinin çoxunda beynəlxalq proqramlar (International Baccalaureate, Cambridge International Education) tətbiq edilir. Sinqapurda tədris edilən kurikulumlardan əsası —"Cambridge General Certificate of Education Ordinary Level (GCE O-Level)" proqramıdır. Şagirdlər vacib fənlərdən bir neçəsini seçərək, sırf onları öyrənməyə fokuslanırlar. Bütün fənləri bilmək onlardan tələb olunmur. Tədris etdiyim fənlə əlaqədar deyə bilərəm ki, əgər şagird üçün hazırlanması lazım olan layihə verilibsə, özəl məktəblər, eləcə də dövlət məktəbləri bütün lazımi resurslarla onları təmin edir.

Şagirdlərin psixo-emosional inkişafına, zorakılığın qarşısının alınması kimi məsələlərə də ciddi diqqət yetirilir. Təhsil Nazirliyi mütəmadi olaraq monitorinqlər təşkil edib, məktəbdəki şəraitlə tanış olur. Mənim qeyd etdiklərim sadəcə bir neçə fərq idi.

*- Bəs gələcək hədəfləriz nədir? Ölkəmizə qayıtmağı düşünürsünüzmü?*

- Hər zaman özümü inkişaf etdirməyə, ixtisasımla əlaqədar yeni məlumatlar əldə etməyə maraq göstərmişəm. Ümid edirəm xaricdə, xüsusilə də Sinqapurda qazandığım təcrübələri və məlumatları bir gün Azərbaycana qayıtdıqdan sonra tətbiq edə, təhsil sistemimizin inkişafına töhfə verə bilərəm. Qısamüddətli məqsədlərim kimi onu deyə bilərəm ki, hazırda Sinqapurda çıxış etməli olduğum konfranslar, seminarlar var. Bu ölkənin təhsil sistemi mənim müəllim kimi inkişafıma çox dəstək olur. Hər həftə məktəbimizdə seminar, kurs, konfrans haqqında məlumatlar paylaşılır və düşünürəm ki, özünü inkişaf etdirmək istəyən bir müəllim üçün bundan yaxşı mühit ola bilməz. Öyrənib, öyrətməyə davam etmək, təhsil sahəsində yeniliklərdən xəbərdar olub, bunları tətbiq etməyə çalışmaq, yeni metodlar, təxrübələr barədə geniş bilgilərə sahib olmaq əsas məqsədlərimdəndir.

### Azərbaycan təhsilinin yetirməsi...

Bəli, o, Azərbaycan təhsilinin yetirməsi, Azərbaycan müəllimidir. Səbinə Məmmədovanın timsalında bir daha şahidi oluruq ki, müəllim harada fəaliyyət göstərməsindən asılı olmayaraq yüksək bilik və bacarıqlara malik olmalıdır. Yetər ki, savadlı, müasir dövrün tələb və çağırışlarına cavab verə bilsin. Bu zaman uğur hər zaman onun yanında olacaq...

**Samirə KƏRİMOVA**




# Azərbaycanlı tələbə Milan Konqresində təqdimat edib

**Xəbər verildiyi kimi, İtaliyanın Milan şəhərində 75-ci Beynəlxalq Astronavtika Konqresi keçirilib. Azərbaycanlı tələbələr böyük heyətlə Milan Konqresində təmsil olunub. Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Milli Aviasiya Akademiyası, ADA Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan İdman Akademiyası və Sumqayıt Dövlət Universitetinin tələbə, gənc mütəxəssis və alimləri sözügedən konqresdə uğurla iştirak ediblər.**

Qeyd edək ki, Azərbaycandan Milan Konqresinə təqdim olunmuş 345 elmi məqalənin 90 faizi gənclər tərəfindən hazırlanıb. Azərbaycan Texniki Universitetinin SABAH qruplarının "İnformasiya texnologiyaları" ixtisasının 4-cü kurs tələbəsi Səfərəli Telman oğlu Səfərli Milan Konqresi ilə bağlı fikirlərini və təəssüratlarını "Azərbaycan müəllimi" ilə bölüşüb: "2021-ci ildə Azərbaycan Texniki Universitetinə daxil olmuşam. İlk gündən universitetdə İdman klubunun yaradılmasında böyük işlər görmüşəm. "Heydər Əliyev və Azərbaycan tarixi" adlı universitetlərarası yarışmada universitetimizi təmsil etmişəm". Gənc tələbə Abşeron Olimpiya İdman Kompleksində ağır atletika və trenajor müəllimi də işləyib. Dəfələrlə boks və cüdo üzrə yarışlara qatılıb. İFBB Beynəlxalq yarışında nümayəndə heyətinin tərkibində Azərbaycanı təmsil edib. 2 fərqli kateqoriya üzrə dəfələrlə AQGF-nin keçirdiyi qol güləşi yarışlarında fərqli dərəcələr əldə edib və "strongman" yarışmalarında fərqlənib: "Ən çox yadda qalan günüm - 2022-ci ildə yüksək nəticə ilə universitetin SABAH qruplarına daxil olduğum gün - Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin 2-ci dalğasına qəbul olmağım idi. 6 ay müddətində oranı bitirib və keçirilən Hakaton yarışmasının qalibi oldum. Oxuduğum müddətdə kibertəhlükəsizlik sahəsində bir sıra beynəlxalq sertifikatlar almışam. Bu gün qazandığım uğurlarlarımın davamı olaraq Azərbaycan Texniki Universitetinin tələbəs kimi İtaliyanın Milan şəhərinin ev sahibliyi etdiyi 75-ci Beynəlxalq Astronavtika Konqresi çərçivəsində ölkəmizi təmsil edən milli elmi komandanın üzvü kimi çox sevincli və qürurluyam".

Azərbaycanlı tələbə konqresin panel sessiyasında "Süni intellekt naviqasiya və müşahidə sistemi (ArtificialIntelligence Navigation and Observation System - A.I.N.O.S)" layihəsini təqdim edib. SABAH qruplarının bakalavriat səviyyəsinin tələbəsi fiziki formula əsasən işləyən süni intellekt barədə auditoriya iştirakçılarına ətraflı məlumat verib: "Bu gün kiber biliyimi artırmaq üçün Elm və Təhsil Nazirliyinin "Codeforfuture" layihəsində təhsil almaq şansı qazandım. Bu ilin ilk rübündə hazırladığım abstrakt İAFASTRO tərəfindən qəbul aldı. Məqaləm öz hazırladığım cihaz barəsindədir və cihazın əsas işləmə prinsipi göydəki cisimləri izləmək və onlar haqqında məlumatı ekranda əks etdirir. Cihaz AİNOS-Artificial İntelligence Naavigation and Observation System-Süni İntellekt Navigasiya və Müşahidə Sistemi əsas bir formulaya və bu formula Keplerin 3 qanunu, Nyuton qanunu və elliptik hərəkət qanuna əsaslanır".

Milan Konqresində təqdimatı iştirakçılar tərəfindən maraqla qarşılanan Azərbaycanlı tələbəni Səfərəli Səfərlini qarşıda hələ çox sınaqlar və uğurlar gözləyir. "Azərbaycan müəllimi" olaraq AzTU tələbəsinin hədəfinə doğru irəlilədiyi yolda inamla addımlayacağına inanır və müsahibimizə yeni-yeni uğurlar arzulayırıq!

**Şakir CƏFƏROV**

# Dünya çempionu MÜHƏNDİS

## “İdman mənim üçün sadəcə bir hobbi yox, həm də həyat tərzidir”

Uğur hekayəsi

**Ölkəmizi beynəlxalq arenada təmsil edərək, müxtəlif nüfuzlu yarışlarda yüksək nəticələr əldə edən gənclərimiz çoxdur. Vətənpərvər gənclərimizlə hər zaman qürur duyur, uğurlarına sevinirik. Yasin İbrahimov da belə gənclərimizdəndir. 2007-ci ildə Bakı şəhərində anadan olub. Xətai rayonunda yerləşən 191 nömrəli tam orta məktəbin məzunudur. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Mexanika və informasiya texnologiyaları fakültəsinin “Proseslərin avtomatlaşdırılması mühəndisliyi” ixtisasının birinci kursunda oxuyur.**




### Taekvondo üzrə nailiyyətləri

Y.İbrahimov 9 il taekvondo ilə məşğul olub və bir çox uğurlar qazanıb: “İdman mənim üçün sadəcə bir hobbi yox, həm də həyat tərzidir. Uşaq yaşlarından idmanla məşğulam və ilk nailiyyətlərim Koreya döyüş sənəti olan taekvondo üzrədir. Taekvondo idmançıdan nəzakət, dürüstlük, əzmkarlıq, özünü idarə etmə və dönməz ruhdan əlavə yüksək fiziki bacarıq tələb edir. Əzmkarlığım sayəsində bütün tələblərin öhtəsindən gəlməyi bacarmışam. 2016-cı ildə Belarusun Minsk şəhərində keçirilən dünya kubokunda 3-cü yerə nail olmuşam. 2017-ci ildə Kiprdə keçirilən Avropa çempionatında və 2018-ci ildə Çeçenistanda təşkil olunmuş Qafqaz kubokunda qızıl medallar qazanmışam. 2019-cu ildə isə Özbəkistanın Buxara şəhərində keçirilən beynəlxalq turnirdə 3-cü yerin sahibi olmuşam”.

### “Döyüşü tam olaraq hiss edirəm”

Savatın assault növü ilə isə Yasin İbrahimov 2 ildir məşğuldur və artıq qızıl medallara sahibdir: “Savat ilə az müddətdir məşğul oluram. Hələ taekvondo ilə məşğul olarkən savat idman növü üzrə respublika çempionu oldum və məni savat milli yığma komandasına dəvət etdilər. Keçən ilin 6-7 oktyabr tarixlərində Avstriyanın Veyz şəhərində keçirilən dünya kubokunda 52 kq çəki dərəcəsində mübarizə apararaq 2-ci yerə sahib oldum. 2024-cü il 6-7 aprel tarixlərində İtaliyanın Cenova şəhərində keçirilən beynəlxalq turnirdə, iyun ayında Bolqarıstanın Kranevo şəhərində start götürən Avropa çempionatında 52 kq çəki dərəcəsində gümüş medallara layiq görüldüm. Bu yaxınlarda Avstriyanın Veyz şəhərində keçirilən dünya kubokunda qızıl medala sahib oldum. Uğurlarıma görə məşqçilərim Taleh Nağızadəyə və Hikmət Xəlilova dərin təşəkkürümü bildirirəm”.

Yasin taekvondo və savat arasında elə böyük fərq olmadığını bildirir: “Savat idmançıların xüsusi görünüşlü çəkməyəbənzər ayaqqabılarda döyüşdüyü yeganə idman növüdür. Burada əllər və ayaqlardan eyni şəkildə istifadəyə icazə verilir. Taekvondoda ayağa zərbə vurmağa icazə yoxdur. Savat döyüşlərində müxtəlif cür istifadə imkanları yaradılmaqla 4 növ ayaq və əl zərbələrindən istifadəyə icazə verilir. Savatın müxtəlif versiyaları mövcuddur. Savat döyüşləri boks rinqində keçirilir və 2-5 raund arası dəyişilir. Mənə savat idman növü daha yaxındır. Çünki bu idman növündə döyüşəndə mən döyüşü tam olaraq hiss edirəm”.

### Uğurlu idmançı və mühəndis olmaq arzusu

Ali məktəbdə yaxşı oxuduğunu, gələcək ixtisasının sirlərini həvəslə öyrənməyə can atdığını dilə gətirən gənc idmanın, tez-tez müxtəlif turnirlərə qatılmasının onun təhsilinə mənfi təsir etmədiyini deyir. Əksinə, bir çox ölkələri gəzmək, bayrağımızı dünya dövlətləri bayraqları arasında yüksəklərə qaldırmaq, himnimizi səsləndirmək kimi anların ona böyük xoşbəxtlik bəxş etdirdiyini dilə gətirir. Müxtəlif mədəniyyətlərlə, uşaqlarla ünsiyyətdə olmağın onun dil biliklərinin, dünyagörüşünün artmasına çox müsbət təsir göstərdiyini vurğulayır.

Yasin İbrahimov deyir: “Ali məktəbə qəbul olarkən ixtisasımı valideynlərimin məsləhəti ilə seçmişəm. Lakin hazırda AzMİU-nu, “Proseslərin avtomatlaşdırılması mühəndisliyi”ni seçdiyimə görə çox düzgün addım atdığımı düşünürəm. Bu ixtisas aktual və gələcəyi olan bir peşədir. Dərslərimiz çox maraqlı keçir, tələbə yoldaşlarımla məlumatsız olduğumuz bir çox yenilikləri kəşf edirik. Universiteti bitirdikdən sonra ixtisasım üzrə işləmək arzusundayam. Eyni zamanda idmanla da məşğul olmağa davam edəcəyəm. Gələcəkdə idman sahəsində daha böyük uğurlara nail olmaq arzusundayam”.

**Lamiyyə ƏLİMƏRDANOVA**
**Abşeron-Xızı üzrə regional təmsilçi**


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 38628 **Sifariş** 2473
**Məsul növbətçi:** Ş.Cəfərov


# Etibarsız sayılır





**Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kolleci** tərəfindən 2004-cü ildə İsmayılova Sevinc İbrahim qızına verilmiş BB-II-001509 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 3 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Süleymanova Rəna Süleyman qızına verilmiş A-043341 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 2 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Abbasov Mirabbas Ələsgər oğluna verilmiş E-499055 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İsrafilova Natəvan Rafiq qızına verilmiş A-652428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Nağıyeva Ramiyə Şöhrəddin qızına verilmiş B-651504 nömrəli əsas təhsil haqqında şəhadətnamə və 2005-ci ildə verilmiş B-220517 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Əlisoltanlı kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş İsmayılova (İmanova) Yeganə Yaqub qızına verilmiş A-082910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** 121 nömrəli orta texniki peşə məktəbi tərəfindən 1987-ci ildə Qurbanov Rasim Ağəli oğluna verilmiş A-416138 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Bədəlova Əfsanə Ruslan qızına verilmiş A-962238 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** Şirinbəy kənd tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Məmmədova (Yusifova) Dürdanə Orman qızına verilmiş 255432 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Əliyeva (Məmmədova) Təzəgül Ələmdar qızına verilmiş B-027301 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəy kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Qurbanov İsgəndər Qurbanəli oğluna verilmiş 351453 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 9 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Salahov Nicat Qalib oğluna verilmiş E-403762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Seyidbazar kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Abbaslı Şəhriyar Zəkulla oğluna verilmiş B-646619 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəliabad şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Məmmədova (Qurbanova) Türkanə Asif qızına verilmiş B-005936 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 9 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Rzazadə Rza Sakin oğluna verilmiş E-583231 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Haftoni qəsəbə tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Talıbova Xədicə Rauf qızına verilmiş C-634349 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əhmədova Nina Tofiq qızına verilmiş B-272727 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** inteqrasiya təlimli internat tipli gimnaziyanın IX sinfini 2017-ci ildə bitirmiş Abdurahmanov Mehman Məhəmməd oğluna verilmiş C-061648 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 74 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Əliyev Əzizulla Rəşad oğluna verilmiş C-897143 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Gülməmmədli kənd tam orta məktəbi 1984-cü ildə bitirmiş İbrahimov Nadir Mustafa oğluna verilmiş AK-014920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qazbinə kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Yusifov Fizuli Şamil oğluna verilmiş A-220722 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qaysa kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Abdullayeva Fazilə Telman qızına verilmiş E-231474 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Poştbinə kənd 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş İsmayılov İbrahim Ələkbər oğluna verilmiş E-039710 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məhərli Məhər Həsən oğluna verilmiş 179397 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Aran qəsəbə 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Səlimov Ceyhun Şakir oğluna verilmiş 556654 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** C.Məmmədquluzadə adına Kəhrizli kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Bahadurzadə Cəsarət Elman oğluna verilmiş B-701423 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 25 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Qafarova Vəfa Heybətulla qızına verilmiş 450142 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Vizəzəmin kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Ağayev Xalid Müqabil oğluna verilmiş A-170427 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qaradağlı kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş İbrahimov Rəşad Habil oğluna verilmiş A-243487 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 2 nömrəli tam orta məktəb-liseyi 1996-cı ildə bitirmiş Babayeva Nuridə Nurbaba qızına verilmiş A-133260 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 273 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Kərimova Əsbət Bəhmən qızına verilmiş A-519470 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2009-cu ildə Məmmədova Nilufər İbrahim qızına verilmiş BB-II-089893 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Qara Nuru kənd tam orta məktəbin VIII sinfini 1987-ci ildə bitirmiş Fayziyev Nizami Sədri oğluna verilmiş 261747 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Kamallı kənd ümumi orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Şıxəliyeva (Dəmirova) Gülnarə Məhəmmədəli qızına verilmiş 1270 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli məktəb-liseyi 2015-ci ildə bitirmiş Musayeva Emiliya Fuad qızına verilmiş A-417868 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 10 nömrəli Peşə Liseyi (indiki Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2019-cu ildə Əliyev Məhəmməd Şamil oğluna verilmiş D-126712 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**P.I.Havroş adına Kiyev Tibb Kolleci** tərəfindən 2021-ci ildə Nəbiyev Nicat Xanlar oğluna verilmiş Dİ-004589 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Yeni Əyricə kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Səmədzadə Sübhan Zəfər oğluna verilmiş E-584797 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qaraçay qəsəbə tam orta məktəbi 2004-cü ildə bitirmiş Nəbiyeva Aida Hüseynəli qızına verilmiş B-078887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Hafizov Rüstəm Aydın oğluna verilmiş A-166645 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbi** tərəfindən 1992-ci ildə Ələkbərov Saleh Arif oğluna verilmiş HT-763090 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sımadakənd kənd tam orta məktəbin IX sinfini 1994-ci ildə bitirmiş Rəsulova Rəna İslam qızına verilmiş 926 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**12 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2019-cu ildə Hüseynova Tünzalə Məmməd qızına verilmiş A-122319 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 16 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Mehdiyeva Rumiyyə Nadir qızına verilmiş 244773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2018-ci ildə İsmayılzadə Faiq Eyyub oğluna verilmiş AT-004765 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitunu** 1978-ci ildə bitirmiş Mehdiyev Aman Qara oğluna verilmiş D-I-013236 nömrəli diplom və 2011-ci ildə verilən BB-I-016938 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Abdullayeva (Mirzəliyeva) Rasimə Ahudər qızına verilmiş B-157370 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin** (Azərbaycan Müəllimlər İnstitunun Mingəçevir fiilialı) tərəfindən 2004-cü ildə Qədimov Taleh Saleh oğluna verilmiş B-000083 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 294 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş İsrayılov Röyal Elvin oğluna verilmiş E-677548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Ağayeva Zərif Taleh qızına verilmiş E-357560 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Qasımov Rahib Cəmaləddin oğluna verilmiş A-080996 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**84 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 1992-ci ildə Babayev Qüdrət Həsən oğluna verilmiş Г-376294 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.